

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Ekoaksiya nə zamana kimi davam etməlidir?




4


# SƏS

№ 052 (6735)

29 mart 2023-cü il.
Qiymәti 60 qәpik


# Heç kim bizimlə ultimatum dili ilə danışa bilməz!



2

Prezident İlham Əliyev Məsim Məmmədovu Prezidentin Laçın rayonunda xüsusi nümayəndəsi təyin olunması ilə əlaqədar qəbul edib

# Makronun qara martı









8

## Hanı bu şəhərin baharı?..



13

## "Demokratiya sammiti" adı altında BAYDENİN QONAQLIĞI




6

## Gənclərin bayağı musiqiyə meyili artır: günahkar kimdir?



16



12

## KÜNCDƏN ZƏRBƏ!

## Gömrük biabırçılığı: Şəxsi mala görə niyə vergi tutulur?



14

# Heç kim bizimlə ultimatum dili ilə danışa bilməz!

## Prezident İlham Əliyev Məsim Məmmədovu Prezidentin Laçın rayonunda xüsusi nümayəndəsi təyin olunması ilə əlaqədar qəbul edib





## İlham Əliyev: “Biz Göygöl rayonundan da Şərqi Zəngəzura yol açırıq”




**Azərbaycan Prezidenti İlham Əliyev Məsim Məmmədovu Prezidentin Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Laçın rayonunda xüsusi nümayəndəsi təyin olunması ilə əlaqədar qəbul edib. Dövlətimizin başçısı qəbulda çıxış edib. Prezident İlham Əliyev öz çıxışında qeyd edib ki, Laçın rayonu ölkəmizin ən böyük rayonlarından biridir. Rayonun çox böyük potensialı var:**

-Siz Laçın rayonunda Prezidentin xüsusi nümayəndəsi vəzifəsinə təyin edilirsiniz. Sizə böyük etimad göstərilir. Əminəm ki, siz bu etimadı doğruldacaqsınız.

Laçın rayonu ölkəmizin ən böyük rayonlarından biridir. Rayonun çox böyük potensialı var. Əlbəttə ki, Laçın rayonuna qayıdacaq keçmiş məcburi köçkünlər bundan sonra Laçında rahat yaşamalıdırlar və Azərbaycan dövləti bunu təmin edəcək.

Laçın rayonu 28 il işğal altında idi və bu işğal dövründə rayonun, demək olar ki, bütün infrastrukturu Ermənistan tərəfindən məhv edilmişdir, ətraf mühitə böyük ziyan vurulmuşdur. Bütövlükdə bizim meşə fondumuzun qanunsuz istismarı nəticəsində 60 min hektar meşə ermənilər tərəfindən məhv edilib, kəsilib, talanıb, satılıb. Onun böyük hissəsi Laçın rayonunda olan meşə fondudur.

İşğal dövründə ermənilər Laçında qanunsuz məskunlaşma siyasəti aparmışlar. Xaricdə yaşamış ermənilər həm Laçın şəhərinə, həm bir neçə kəndə gətirilmiş və orada yerləşdirilmişlər. Bu, bütün beynəlxalq konvensiyalara görə hərbi cinayət sayılır. Əfsuslar olsun ki, Ermənistan dövləti bu hərbi cinayətə görə hələ də məsuliyyətə cəlb edilməmişdir.

Şuşanın işğalından bir neçə gün sonra Laçın rayonu da işğal edilmişdir. Bu, ölkəmiz üçün böyük faciə idi, laçınlılar üçün böyük faciə idi və bu, AXC-Müsavat xəyanətkar cütlüyünün növbəti çirkin xəyanəti idi. AXC-Müsavat cütlüyü hakimiyyətə can atırdı, istənilən yollarla hakimiyyəti zəbt etməyə çalışırdı və torpaqların Ermənistana verilməsi, satılması faktiki olaraq onların bu çirkin niyyətə çatmaları üçün bir fürsət idi. Onlar bunu belə qiymətləndirirdilər - hesab edirdilər ki, əgər Azərbaycan xalqı böyük bir sarsıntı keçirərsə, onlar üçün əlavə şanslar yaranacaq. Əfsuslar olsun ki, belə də oldu. Şuşanın, ondan sonra Laçının işğal altına düşməsi Azərbaycanda çox ciddi siyasi böhrana səbəb olmuşdur. Bu imkandan, fürsətdən istifadə edərək AXC-Müsavat xəyanətkar cütlüyü Laçın işğal olunandan bir ay sonra hakimiyyəti qanunsuz yollarla zəbt etmişdir və bu, daha böyük faciələrə yol açdı. Ondan bir il keçməmiş - 1993-cü ilin aprelində Kəlbəcər işğal altına düşdü və beləliklə, ovaxtkı - keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin ərazisi ilə Ermənistan ərazisi arasında coğrafi bağlantı yaradılmışdır və əlbəttə ki, Birinci Qarabağ müharibəsindəki məğlubiyyətin əsas şərti olmuşdur.

Biz Laçını həm döyüş meydanında, həm siyasi yollarla qaytardıq. İkinci Qarabağ müharibəsi dövründə Laçın rayonunun işğaldan azad edilməsi əsas vəzifələrdən biri idi və biz faktiki olaraq Laçın rayonunun cənub hissəsini döyüşərək, vuruşaraq azad etdik. Güləbird və digər bir neçə kənd döyüş meydanında azad edilmişdir, biz Laçın-Xankəndi yoluna çıxmışdıq. Məhz bu əməliyyat nəticəsində, eyni zamanda, Şuşa şəhərinin erməni işğalçılarından azad edilməsi faktiki olaraq Ermənistan dövlətinin kapitulyasiyasına gətirib çıxarmışdır. Vaxtilə ”Qarabağ Ermənistandır” deyən Ermənistan rəhbərliyi öz məğlubiyyətini qəbul etməyə məcbur olmuşdur və 2020-ci ilin noyabrın 10-da kapitulyasiya aktı Ermənistan tərəfindən imzalandı. Laçın rayonunun digər hissəsi - ən böyük hissə artıq siyasi yollarla azad edilmişdir. Bu, bizim böyük tarixi Zəfərimizdir.

Xüsusilə bildirməliyəm ki, uzun illər aparılmış danışıqlar əsnasında hər zaman vasitəçilər Laçın rayonuna hansısa xüsusi bir yanaşma sərgiləyirdilər və Ermənistan bütövlükdə Laçın rayonunun Azərbaycana qaytarılmasını qəbuledilməz sayırdı. Halbuki onlar digər rayonlardan da çıxmaq fikrində deyildilər. İndi - müharibədən iki il yarım keçəndən sonra bu, hər kəsə daha aydın oldu. Beynəlxalq vasitəçilər - ATƏT-in ovaxtkı Minsk qrupu danışıqların aparılması ilə faktiki olaraq bu işğalı möhkəmləndirməyə çalışırdılar. İndi hər şey aydın oldu - Fransanın Azərbaycana bu ədalətsiz və mənfi münasibəti təsadüfi deyil. Sadəcə olaraq, işğal dövründə bunu müəyyən dərəcədə pərdələmək istəyirdilər, sadəcə olaraq, bizi çaşdırmaq istəyirdilər. Amma baxın, müharibədən - İkinci Qarabağ müharibəsindən keçən iki il yarım ərzində bizə qarşı hansı çirkin əməllər törədilir, hansı əsassız ittihamlar irəli sürülür. Yəni, bütün bunlar göz qabağındadır, o cümlədən Avropa Parlamentinin Azərbaycana qarşı qəbul etdiyi bir sıra qətnamə yenə də ermənipərəst, rüşvətxor və anti-Azərbaycan qruplaşmanın məhsuludur və burada aparıcı rolu Fransa deputatları oynayır. İşğal dövründə də biz bunu təbii ki, hiss edirdik, amma bu dərəcədə yox. Təsəvvür edə bilməzdik ki, ölkələr bu dərəcədə riyakar, yalançı ola bilərlər. Adamın üzünə baxıb bir söz deyə, arxada başqa iş görə bilərlər.

Yəni, bu iki il yarım müddət ərzində bütün dünya bir daha hər şeyi gördü. Eyni zamanda, anti-Azərbaycan qüvvələr bizim əyilməz iradəmizi gördü. Heç kim bizim iradəmizə təsir edə bilməz. Heç kim bizimlə ultimatum dili ilə danışa bilməz. Biz bunu İkinci Qarabağ müharibəsində Ermənistana sübut etmişik, müharibədən keçən iki il yarım ərzində Ermənistanın himayədarlarına sübut etmişik. Onları məğlub etmişik və bir daha bütün dünyaya göstərmişik ki, biz istədiyimizə nail oluruq və olacağıq.

Beləliklə, Laçın rayonunun tarixçəsi, əlbəttə ki, bir çox hallarda ibrət olmalıdır. Bundan sonra Laçın rayonunun həm təhlükəsizliyinin qorunması, həm oraya keçmiş məcburi köçkünlərin tezliklə qaytarılması bizim üçün əsas vəzifələrdən biridir. Laçın rayonunun Ermənistanla sərhəd istiqamətləri üzrə bütün mühəndis-istehkam işləri, demək olar ki, başa çatmaq üzrədir. Heç vaxt tarixdə olmayan yollar salınıb, Laçın və Kəlbəcər rayonlarında 100 kilometrlərlə ölçülən kəndlərarası yollar, eyni zamanda, hərbi mövqelərə gedən yollar salınıbdır. Beləliklə, bu gün biz Azərbaycan-Ermənistan sərhədi istiqamətində çox əlverişli mövqelərə sahib olmuşuq və bu mövqelərdə özümüzü gücləndiririk, bu mövqelərdə qalacağıq. Əlbəttə ki, Laçın rayonunun təhlükəsizliyi ilə bağlı başqa addımlar da atılır, tədbirlər görülür və bu tədbirlər imkan verir ki, oraya qayıdacaq soydaşlarımız rahat, təhlükəsizlik şəraitində yaşasınlar.

*Ardı Səh. 3*

Əvvəli Səh. 2

# Heç kim bizimlə ultimatum dili ilə danışa bilməz!

## Prezident İlham Əliyev Məsim Məmmədovu Prezidentin Laçın rayonunda xüsusi nümayəndəsi təyin olunması ilə əlaqədar qəbul edib

İkinci Qarabağ müharibəsi başa çatanda rayon bizim nəzarətimizə keçsə də, Laçın şəhəri nəzarətimizdən kənarda idi. Bunun obyektiv səbəbləri var idi. Çünki Ermənistandan Qarabağa gedən yol Laçın şəhərinin ortasından keçirdi. 2020-ci il noyabrın 9-da Rusiya Prezidenti ilə gün ərzində apardığım bir çox saatlıq telefon danışıqları nəticəsində biz nail olduq ki, Laçın şəhərinin də Azərbaycana qaytarılması şərtləndirilsin. Bu məqsədlə alternativ yolun çəkilişi mənim təkidimlə yekun Bəyanata salınmışdır və müddət göstərilmişdir. Amma bu, bir qədər qeyri-müəyyən ifadələrlə göstərilmişdir ki, üç il ərzində bu məsələ ilə bağlı müzakirələr aparılacaq. Ancaq İkinci Qarabağ müharibəsi başa çatan kimi mən dərhal göstəriş verdim ki, yeni yolun marşrutu və bütün texniki parametrləri müəyyən edilsin. Biz bu işə tezliklə başlamışıq və bunu bir il yarım ərzində həll etmişik. Yəni, Laçın şəhərindən yan keçən yeni yol çəkildi və keçən il avqustun əvvəlində, daha doğrusu, avqustun 2-də yol istismara hazır idi. Biz Rusiya sülhməramlı qüvvələrinin komandanlığına xəbər göndərmişdik ki, artıq onlar öz postlarını ovaxtkı marşrutdan çıxarıb yeni yola keçirsinlər və avqustun 5-nə qədər biz Laçın şəhərinə, Zabux və Sus kəndlərinə girməliyik. O vaxt bizim nümayəndələrimizlə təmasda olan Qarabağ ermənilərinin nümayəndələri bizdən xahiş etmişdilər ki, vaxt verin, biz avqustun 25-nə qədər özümüz bu məsələləri həll edərik, orada qanunsuz məskunlaşmış erməniləri Laçın şəhərindən, Zabux və Sus kəndlərindən çıxaracağıq və beləliklə, məsələ rahat şəkildə öz həllini tapa bilər. Mən buna etiraz etmədim, yəni 20 gün o qədər də böyük fərq etmir. Beləliklə, Laçın şəhərində, Zabux və Sus kəndlərində qanunsuz məskunlaşmış bütün ermənilər aparılan işlər nəticəsində avqustun 25-də oradan çıxarılmışdır. Avqustun 26-da biz Zabux, Sus kəndlərinə və Laçın şəhərinə qayıtmışıq. Ondan sonra mən Laçın şəhərinə səfər etdim, Azərbaycan Bayrağını şəhərin mərkəzində qaldırdım və bəyan etdim ki, biz artıq bu doğma diyarımızda əbədi yaşayacağıq.






**Prezident: "Biz Laçın və Kəlbəcərin su ehtiyatları hesabına böyük enerji mənbəyi yaradacağıq"**

**"Yaxın gələcəkdə Laçın rayonuna təqribən 10 minə yaxın keçmiş köçkün yerləşdiriləcək"**

Ondan dərhal sonra göstəriş verildi ki, biz vaxt itirmədən Laçın şəhərinin yenidən qurulması prosesinə start verək. Artıq iki ildən çoxdur ki, Laçın rayonunun yenidən bərpası ilə bağlı işlər aparılır, bir çox işlər görülüb. Bildiyiniz kimi, Laçın rayonunda beynəlxalq hava limanı inşa edilir. O bölgədə heç vaxt hava limanı olmamışdır və hava limanının yerini müəyyən edərkən böyük çətinliklərlə üzləşmişdik. Çünki orada uçuş-enmə zolağının inşası üçün düz yer tapmaq mümkün olmadı. Biz dağları kəsərək və böyük torpaq işlərini həyata keçirərək bütün dağlıq ərazilərdə, dağlarla əhatə olunan ərazilərdə beynəlxalq hava limanı inşa edirik. Yəqin ki, gələn ilin sonunda, ya da 2025-ci ilin əvvəllərində hava limanı istismara veriləcək.

Kəlbəcər-Laçın yolunun yenidən qurulması prosesinə start verildi. Mən özüm Kəlbəcərdən Laçına maşınla getmişəm, məsafə o qədər uzun olmasa da, bu yol həddindən artıq çətin və təhlükəlidir, indiki yoldan istifadə etmək, demək olar ki, qeyri-mümkündür. Sovet vaxtında o bölgədə yaşamış insanlar da yaxşı xatırlayırlar ki, o yol çox çətin idi, bir çox hallarda bu, serpantin yoldur və çox təhlükəli idi. Ona görə biz bu yolu yenidən qururuq, bir çox tunellər inşa ediləcək. Ümumiyyətlə, Kəlbəcər və Laçın rayonlarında bizim ən çox tunellərimiz məhz o bölgədədir və Murov dağının altından keçən tunelin uzunluğu təxminən 12 kilometr olacaq. Beləliklə, biz Göygöl rayonundan da Şərqi Zəngəzura yol açırıq. Eyni zamanda, Qubadlı-Laçın yolu da sürətlə inşa edilir.

Yəni, müharibə başa çatan kimi Laçın rayonunun yenidən qurulması ilə bağlı işlərə start verilmişdir. Amma Laçın şəhərinin yenidən qurulması keçən ilin avqustun 26-dan bu yana icra edilir. Sizə və Azərbaycan ictimaiyyətinə bildirmək istəyirəm ki, birinci mərhələdə Laçın şəhərində 500-ə yaxın fərdi ev inşa edilir və ya ermənilər tərəfindən dağıdılmış evlər yenidən bərpa olunur. Çoxmərtəbəli səkkiz yaşayış binası yenidən qurulur, ya da ki, tamamilə əsaslı təmir olunur və 30-dan çox ictimai bina inşa edilir. Mənim göstərişimlə bütün bu işləri biz bu ilin sonuna qədər başa çatdırmalıyıq, bu, sadəcə, birinci mərhələ olacaq. Bu evlərin sayı göstərir ki, minlərlə insan artıq bu ilin sonuna qədər Laçın şəhərində yaşayacaq və laçınlılar bu il öz doğma diyarına qayıdacaqlar.

Eyni zamanda, Laçın şəhərində Heydər Əliyev Fondunun xətti ilə məscid inşa ediləcək. Məscidin təməlini də mən Laçında olarkən özüm şəxsən qoydum və çox gözəl yerdə bizim dini məbədimiz yaxın gələcəkdə inşa ediləcəkdir.

Bununla paralel olaraq, Zabux və Sus kəndlərinin tamamilə yenidən qurulması prosesinə start vermişik. Zabux kəndində 1000-dən çox, Sus kəndində isə 300-dən çox insan yerləşəcək. Xaricdə yaşayan ermənilər Zabux kəndində, yenə də deyirəm, o cinayəti törədən Ermənistan dövləti ilə birlikdə bir kənd salmışdılar, evlər tikmişdilər. O evlərdə indi bizim hərbi birləşmələrimizin şəxsi heyəti yerləşir. Ancaq Zabux kəndinin sakinləri üçün tamamilə yeni kənd salınır.

Bununla yanaşı, bildirməliyəm ki, Güləbird və Qorçu kəndlərinin Baş planı mənim tərəfimdən təsdiqləndi. Birinci mərhələdə Güləbird kəndində 2400, Qorçu kəndində isə 1300 insanın yerləşməsi nəzərdə tutulur. Yəni, gətirdiyim bütün bu rəqəmləri nəzərə alaraq, hər kəs görə bilər ki, yaxın gələcəkdə - bu il və gələn il biz Laçın rayonuna təqribən 10 minə yaxın, bəlkə də çox keçmiş köçkünü yerləşdirəcəyik.

Onu da bildirməliyəm ki, Laçın şəhərinin bütün infrastrukturu yenidən qurulur - su xətləri, kanalizasiya xətləri, elektrik enerjisi xətləri, yollar, Laçın şəhərinin bütün daxili yolları yenidən qurulur. Daxili yolların uzunluğu təqribən 50 kilometrdən çoxdur. Laçın şəhərinin memarlıq üslubu da göz oxşayır. Yəni, bu, nəinki Azərbaycanın dünya miqyasında ən gözəl şəhərlərindən birinə çevriləcək,- nəzərə alsaq ki, Laçının çox füsunkar təbiəti - meşələri, dağları, çayları var,- bu, bir cənnət məkan olacaqdır. Bax, biz bu işləri görürük və bu, görülən işlərin, sadəcə, bir hissəsidir. Biz azad edilmiş bütün torpaqlarda indi genişmiqyaslı quruculuq işləri aparırıq və bu işləri öz hesabımıza görürük və görəcəyik.

Siz mənim xüsusi nümayəndəm kimi artıq dərhal işə başlamalısınız, bütün bu işlərə rəhbərlik etməlisiniz. İnfrastruktur layihələri, əlbəttə ki, mərkəzi icra orqanları tərəfindən icra edilir. Eyni zamanda, siz Laçın rayonunun gələcək inkişafı ilə bağlı, iş yerlərinin yaradılması ilə bağlı, vətəndaşların rahat yaşaması ilə bağlı konkret əlavə təkliflər verməlisiniz. Çünki biz çalışırıq ki, azad edilmiş bütün rayonlarda işlər paralel surətdə getsin. Ona görə, məsələn, hər rayonda 3-4 kəndin birinci mərhələdə qurulması nəzərdə tutulur, eyni zamanda, əlbəttə ki, şəhərlər də daxil olmaq şərti ilə. Ancaq, məsələn, söhbət Laçın rayonundan gedirsə, Laçın rayonunda birinci mərhələdə qurulacaq bütün kəndlərin adları təsdiqləndi və biz birinci mərhələdə bəzi yerlərdə bir neçə kəndin sakinlərini bir yerə cəmləşdirəcəyik. Çünki bu, həm onların yaşaması, eyni zamanda, nəqliyyat-logistika məsələlərinin həlli üçün daha əlverişlidir. Bizim bütövlükdə təkcə Qarabağda, Şərqi Zəngəzurda deyil, digər bölgələrimizdə də dağ rayonlarında kəndlər bir-birindən aralı yerləşirdi və bu, bir çox hallarda insanların rahat yaşamasına o qədər də imkan vermirdi. Yəni, bu, ənənəvi olaraq belə qurulmuşdur. Əlbəttə ki, azad edilmiş torpaqlarda indi və gələcəkdə hər bir kənd bərpa ediləcək. Ancaq Azərbaycan dövləti öz üzərinə düşən vəzifəni bunda görür ki, biz yaxında yerləşən kəndlərin sakinlərini bir yerə yığıb onlar üçün gözəl şərait yaradaq. Yəni, biz şəhər tipli kəndlər quracağıq və mən qurulacaq bütün kəndlərin Baş planını təsdiqləmişəm. Eyni zamanda, kəndlərin xarici görkəmi də təsdiqlənib və yenə də deyirəm, həm rahat, həm də memarlıq nöqteyi-nəzərindən çox gözəl olacaq.

Əlbəttə ki, bundan sonra Laçın rayonunda ətraf mühitin qorunması birinci vəzifə olmalıdır. Biz keçmiş köçkünləri qaytaracağıq, infrastruktur yaradacağıq və orada iş yerləri yaradılacaq, çox gözəl imkanlar yaradılacaq. Ancaq qayıdacaq hər bir keçmiş məcburi köçkün özü də bilməlidir, siz də mənim nümayəndəm kimi bilməlisiniz, biz ətraf mühiti qorumalıyıq. Çünki ölkəmizin bəzi yerlərində ətraf mühitə böyük ziyan vurulur, qanunsuz işlər görülür, torpaqlar zəbt edilir, ağaclar kəsilir, yerində evlər tikilir, kənd təsərrüfatı təyinatlı torpaqlarda aidiyyəti olmayan obyektlər inşa edilir. Yəni, siz mənim nümayəndəm kimi və bütün vətəndaşlar bilməlidirlər ki, burada qayda-qanun var, özbaşına heç kim heç bir iş görə bilməz. Qaydalar nədir, qanunlar nədir, hər kəs ona əməl etməlidir. Torpaqların zəbt edilməsi, meşə fondunun məhv edilməsi və digər xoşagəlməz hallar olmamalıdır. Yəni, bu hallara dözümlülük sıfır dərəcəsində olmalıdır. Əminəm ki, öz dədə-baba torpaqlarına qayıdacaq bütün keçmiş köçkünlər, bax, bu amalla yaşayacaqlar. Dövlət orqanları onlara kömək etməlidir və nəzarət etməlidir ki, hər şey qaydaqanunla həll olunsun, tənzimlənsin.

Biz Laçın və Kəlbəcər rayonlarının su ehtiyatlarından istifadə edərək böyük bir enerji mənbəyi yaradacağıq. İndi Laçın, Kəlbəcər, Zəngilan və bir neçə digər rayonda Su Elektrik stansiyalarının tikintisi sürətlə gedir, biz 50 meqavatdan çox enerji alırıq. Birinci inşa edilən stansiya Güləbird kəndində olmuşdur, bu layihə həyata keçirilmişdir. Bütövlükdə isə qarşıya məqsəd qoyulmuşdur ki, azad edilmiş ərazilərdə bu ilin sonuna qədər su elektrik stansiyalarının gücü 200 meqavat olsun, gələcəkdə isə 500 meqavata çatmalıdır. Laçın və Kəlbəcər rayonlarında böyük külək enerji potensialı var.

Yəni, bütün bu işlər yoluna qoyulacaq. Yenə də deyirəm, dövlət öz üzərinə düşən vəzifəni icra edir. Demək olar ki, indi bu təyinatdan sonra azad edilmiş əksər rayonlarda mənim xüsusi nümayəndələrim artıq fəaliyyətə başlayacaqdır. Hələ təkcə Kəlbəcər rayonunda təyin edilməyib, bu da olacaq. Bu ərazilərdə, eyni zamanda, yeni idarəetmə üsulu da tətbiq edilməlidir və edilir. Gələcəkdə bu, yeni idarəetmə modeli kimi ölkəmizin bütün digər hissələrində də tətbiq edilməlidir. Yəni, bu, həm böyük quruculuq işləridir, həm də yeni idarəetmə üsuludur. Əminəm ki, bu, təkcə azad edilmiş ərazilərin yox, bütövlükdə ölkəmizin hərtərəfli inkişafına böyük töhfə verəcəkdir. Bax, mənim tapşırıqlarım bundan ibarətdir, siz mənim etimadımı doğrultmalısınız.

Prezidentin Laçın rayonunda xüsusi nümayəndəsi Məsim Məmmədov: Möhtərəm cənab Prezident, mənə göstərdiyiniz yüksək etimada görə Sizə minnətdarlığımı bildirirəm. Qeyd etmək istəyirəm ki, azad edilmiş ərazilərə gedərək, orada erməni barbarları tərəfindən törədilmiş böyük dağıntıları görüb bir azərbaycanlı kimi dərin sarsıntı keçirməmək olmur. Buna baxmayaraq, eyni zamanda, mən həmin regionda aparılan böyük tikinti işlərinin şahidi oldum, gördüm ki, böyük əzmkarlıq var. Sizin rəhbərliyinizlə Azərbaycan xalqı həmin əraziləri tez bir zamanda bərpa etmək, oraya köçüb təzədən oraları inkişaf etdirmək əzmindədir.

Sizi əmin etmək istəyirəm ki, mənim qarşımda qoyulan bütün vəzifə və tapşırıqları vaxtında əzmkarlıqla həyata keçirmək üçün səy və gücümü əsirgəməyəcəyəm. Əsas odur ki, Azərbaycan dövlətinə və cənab Prezident, Sizə vicdanla, təmiz və dürüst xidmət etmək mənim üçün böyük şərəfdir. Təşəkkür edirəm.

# “Bərpa olunan enerji ilə bağlı proqramımız tamamilə fərqli gündəliyə malikdir”

## "İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin 125-ci kitabı çapdan çıxıb

Biz Azərbaycanda bərpa olunan enerji mənbələrini öz enerji təhlükəsizliyimizin təmin olunması üçün inkişaf etdirmirik. Enerji təhlükəsizliyimizi hələ bir neçə il bundan əvvəl təmin etmişik. Bu gün Azərbaycan nəinki öz enerji tələbatlarını təmin edir, o cümlədən xam nefti, neft məhsullarını, təbii qazı, neftkimya məhsullarını və elektrik enerjisini ixrac edir. Bərpa olunan enerji ilə bağlı proqramımız tamamilə fərqli gündəliyə malikdir. Birincisi, bu onunla bağlıdır ki, nəhəng potensial vardır. İkincisi, biz onun sayəsində ixracımızı şaxələndirəcəyik. Nəticədə iqtisadiyyatımızın yeni ekoloji təmiz sektoru yaranacaq.

”İlham Əliyev. İnkişaf - məqsədimizdir” çoxcildliyinin çapdan yeni çıxmış 125-ci kitabında yer alan bu fikirləri dövlətimizin başçısı bu il yanvarın 16-da Əbu-Dabi Dayanıqlılıq Həftəsinin rəsmi açılış mərasimində çıxışı zamanı söyləyib.

AZƏRTAC xəbər verir ki, çoxcildliyin 125-ci kitabında toplanan materiallar 2023-ci ilin yanvar-fevral aylarını əhatə edir. Bu kitaba Prezident İlham Əliyevin Dünya İqtisadi Forumunun illik toplantısında iştirak etmək üçün İsveçrə Konfederasiyasına işgüzar səfərinə, o cümlədən Davosda keçirdiyi görüşlərə dair informasiyalar, ”Avrasiya Orta Dəhlizi: yoldan magistrala” mövzusuna həsr olunmuş panel iclasda moderatorun suallarına verdiyi cavablar, Çinin CGTN (Chine Global Television Network) telekanalına müsahibəsinin mətni daxil edilib.




Yeni kitabda Azərbaycan Prezidentinin Macarıstana rəsmi səfəri, macarıstanlı həmkarı xanım Katalin Novak və Baş nazir Viktor Orban ilə görüşləri və sənədlərin imzalanması barədə materiallar, Viktor Orban ilə mətbuata birgə bəyanatlarının mətni də verilib.

Fevral ayının mühüm hadisələrindən biri Bakıda ”Cənub Qaz Dəhlizi” Məşvərət Şurası çərçivəsində nazirlərin 9-cu və ”Yaşıl enerji” Məşvərət Şurası çərçivəsində nazirlərin 1-ci iclaslarının keçirilməsi oldu. Açılış mərasimində çıxış edən Prezident İlham Əliyev ”Cənub Qaz Dəhlizi” layihəsinin əhəmiyyətindən danışaraq dedi: ”Cənub Qaz Dəhlizi” iki ildən bir az çoxdur ki, açılıb. Bu gün biz artıq TANAP-ın 16 milyard kubmetrdən 30 milyard kubmetrə qədər genişləndirilməsini nəzərdən keçiririk və TAP-ın 10 milyard kubmetrdən 20 milyard kubmetrə genişləndirilməsi haqqında danışırıq. Bu, alternativ enerji mənbəyinə böyük ehtiyac duyulduğunu göstərir. Bu, enerji təchizatının davamlı şaxələndirilməsinin zəruriliyini nümayiş etdirir. Biz buna hazırıq”.

Həmin tədbirdə Prezident İlham Əliyevin, habelə Rumıniya Prezidenti Klaus Yohannisin, Avropa İttifaqının energetika məsələləri üzrə komissarı xanım Kadri Simsonun çıxışlarının mətni 125-ci kitabda toplanıb.

Oxucu yeni kitabda Azərbaycan Prezidentinin ölkəmizə gəlmiş Misir Prezidenti Əbdül Fəttah Əs-Sisi ilə görüşü, Azərbaycan-Misir sənədlərinin imzalanması haqqında informasiyalarla, iki ölkənin liderlərinin mətbuata bəyanatlarının mətni ilə də tanış ola bilər. Bu kitabda Azərbaycan Prezidentinin yerli televiziya kanallarına müsahibəsinin mətni də yer alıb.

Fevralın 6-da qardaş Türkiyədə baş vermiş dağıdıcı zəlzələ Azərbaycan xalqını da dərindən sarsıtdı. Prezident İlham Əliyev Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana zəng edərək başsağlığı verdi, fevralın 8-də isə Türkiyə səfirliyinə gedərək matəm kitabına ürək sözlərini yazdı, səfir Cahit Bağçı ilə söhbət etdi. Bütün bunlar haqqında informasiyalarla yeni nəşrdə tanış olmaq mümkündür. Qeyd edək ki, fəlakətə düçar olmuş qardaş ölkəyə ilk kömək əlini Azərbaycan uzatdı. Azərbaycanlı xilasedicilər və həkimlər yüzlərlə insan həyatını xilas etdilər, xalqımız zəlzələdən zərər çəkənlərə maddi və mənəvi dəstək oldu.

”Azərnəşr” tərəfindən buraxılan 125-ci kitabın hazırlanmasında Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) materiallarından istifadə olunub.

# ”Qərbi Azərbaycan mövzusu Ermənistanın dövləti cinayətlərini dünyada tanıdır”

Qərbi Azərbaycan mövzusu ümumilikdə Ermənistanın Azərbaycana qarşı yüz ildən yuxarı zaman kəsiyində törətdiyi dövləti cinayətlərini dünya ictimaiyyətinə müfəssəl qaydada tanıdır və ifşa edir. Bu fikirləri SİA-ya açıqlamasında Türkiyənin Azərbaycandakı sabiq səfiri, ”İMZA” Sosial İnkişafa Dəstək İctimai Birliyinin Türkiyə təmsilçisi Hulusi Kılıç bildirib.



Böyük siyasətdə və diplomatiyada haqqını tələb etmək üçün qarşı tərəfin kim olduğunu özünə göstərməyin vacib bir amil olduğunu diqqətə çatdıran səfir bildirib ki, ermənilərin Qərbi Azərbaycan torpaqlarına köçürülməsi, bu bölgədəki türk toponimlərinə qarşı soyqırımı aktları, eləcə də soydaşlarımızın yurd-yuvalarından mərhələli və davamlı şəkildə deportasiyaya məruz qalması istiqamətində bütün işlər kompleks şəkildə sülhsevər dünya ictimaiyyətinin diqqətində saxlanılmalıdır.

Bu anlamda Birləşmiş Millətlər Təşkilatının (BMT) katibliyinin Qərbi Azərbaycan İcmasının Qayıdış Konsepsiyasını BMT Təhlükəsizlik Şurasının, Baş Assambleyasının və İqtisadi və Sosial Şurasının rəsmi sənədi kimi yayması tarixi bir hadisə kimi dəyərləndirilmədir.

# Ekoaksiya nə zamana kimi davam etməlidir?

“Azərbaycanın fədakar ekofəallarının, gənc könüllülərin və geniş ictimaiyyətin iştirakı ilə Laçın-Xankəndi yolunda davam edən etiraz aksiyası əsl əzmkarlıq nümayişidir. Aksiyada irəli sürülən tələblər tam şəkildə həqiqəti özündə əks etdirməkdədir. Bu aksiya birmənalı şəkildə Azərbaycan cəmiyyətinin ortaya qoyduğu qəti mövqeyidir. Ən əsası isə, aksiya erməni mediasının və ya Fransa və digər ermənipərəst dövlətlərin idda etdiyi kimi blokada və ya humanitar fəlakət deyil”. Bu fikirləri SİA-ya açıqlamasında Azərbaycan Sosial Rifah Partiyasının sədri Əsli Kazımova deyib.




Partiya sədrinin sözlərinə görə, ekofəalların tələbləri dinc xarakter daşıyır, sülhməramlılara və ya həmin ərazidən istifadə edən mülki vətəndaşlara qarşı hər hansı bir təhdid yaratmır. Bu fakt Beynəlxalq Qırmızı Xaç Komitəsi tərəfindən də etiraf edilə bilər. Yəni, BQXK-nın maşınlarının yoldan sərbəst istifadə etməsi gülünc ”blokada” iddialarını istisna edir. ”Bu kimi yersiz iddialar irəli sürən erməni havadarları etiraz aksiyasının nədən qaynaqlanıdığını niyə açıqmır? Niyə bildirilmir ki, Ermənistan üçtərəfli razılaşmaya əməl etmir və hərbi birləşmələrini Azərbaycan torpaqlarından çıxarmır. Bu aksiya özündə bir sıra mühüm məqamları biləşdirdi. Xankəndidəki separatçı rejim, xarici emissarlıq edən Vardanyan imiləri anladılar ki, Azərbaycanın mövqeyi qəti və dəyişməzdir. Azərbaycan bütün proseslərə nəzarə edir. Bu həm də Qarabağın erməni əhalisi üçün bir stimuldur. Onlar qeyri-qanuni rejimdən canlarını qurtarmaq üçün addım atsınlar.

Azərbaycan dövləti hər zaman bildirib ki, Qarabağın erməni əhalisi bizim vətəndaşlarımızdır. Onlar da bu ölkənin vətəndaşı olaraq sərvətlərimizin talanması ilə barışmamalıdırlar”, - deyən Ə.Kazımova əlavə edib ki, Münxen Təhlükəsizlik Konfransı çərçivəsində Cənubi Qafqazda təhlükəsizlik məsələləri ilə bağlı plenar iclasda çıxış edən Prezident İlham Əliyev bildirib ki, dekabrın 12-dən bizim vətəndaş cəmiyyəti fəallarımız keçid məntəqəsinə gələndən indiyədək 2500-dən çox nəqliyyat vasitəsi, o cümlədən Rusiya sülhməramlılarının və Qırmızı Xaçın təmsilçilərinin yük avtomobilləri keçib: ”Dövlət başçısı vurğuladı ki, Qarabağdan demək olar ki, 100 pasiyent müalicə üçün Qırmızı Xaç tərəfindən Ermənistana aparılıb. Beləliklə, yol açıq olduğu halda biz bunu necə blokada adlandıra bilərik?! Əgər Qarabağdakı ermənilər bu yoldan istifadə etməyə çalışsalar, əminəm ki, onları heç kim dayandırmayacaq. Beləliklə, bəzi erməniparəstlərin bu mənada apardıqları təbliğat da fiaskoya uğradı. Əminəm ki, yaxın zamanda Azərbaycanın fədakar ekofəallarının haqlı tələbləri yerinə yetəcək”.

*Banuçiçək Hüseynli*

# “Mövcud siyasi dialoq konstruktiv əməkdaşlıq müstəvisindədir”

**“Ölkəmizdə dayanıqlı dialoq ənənələri formalaşdırılmaqdadır. Son iki ildə siyasətdə sağlam münasibətlərin tərəfdarlarını müəyyən etmək mümkün olub, siyasi sistemin sağlamlaşdırılmasına nail olunub.**

”Siyasi partiyalar haqqında” yeni Qanun isə siyasi proseslərdə iştirak edən tərəflər arasında güclərin balansına xidmət edir. Təsadüfi deyil ki, Milli Məclisin tarixində ilk dəfə olaraq komitə iclasına çıxarılmazdan əvvəl Qanun layihəsi rəy və təkliflərin bildirilməsi üçün Mili Məclisin saytında yerləşdirilib. Eyni zamanda sənədin ictimai əhəmiyyəti nəzərə alınaraq 2 ictimai dinləmə də keçirilib. Dinləmələrdən sonra müsbətə doğru 70-dək, Milli Məclisdə komitə və plenar iclaslardan sonra müsbətə doğru 40-dək əlavə və dəyişiklik edilib. Venesiya Komissiyasının sırf siyasi partiyanın statusuna və fəaliyyətinə aid olan 132 tövsiyəsindən 112-si Qanun layihəsində nəzərə alınıb”. Bu sözləri SİA-ya açıqlamasında deputat Könül Nurullayev deyib.

Onun sözlərinə görə, qanunun tələblərinə cavab verən partiyalar rəqabətə dözümlü olduğunu sübut edirlər: ”Beləliklə, ölkənin siyasi tarixində ilk dəfə yeni Qanunun hazırlanması prosesinə siyasi münasibətlərin bütün iştirakçı tərəfləri cəlb olunub. Yeni Qanun siyasi partiyalardan manipulyasiya aləti kimi istifadə etməsi üçün əsaslı çətinlik yaradır. Bir sözlə, qanun siyasi dialoqu konstruktiv əməkdaşlıq müstəvisinə qaldırıb.



Ümumiyyətlə, Azərbaycanda Prezident İlham Əliyevin təşəbbüsü ilə siyasi dialoq mühitinin inkişaf etdirməsi siyasi proseslərdə iştirak edən bütün tərəflərin açıq və bərabərhüquqlu münasibətlərə dəvət olunması deməkdir”.

Deputat sözlərinə davam edərək bildirib ki, təşviq olunan siyasi dialoq mühiti siyasi partiyaları cəmiyyətə daha yaxın edir: ”Nəzərə alsaq ki, siyasətdə dialoq mühiti demokratik dəyər kimi qəbul olunur, bu mənada Azərbaycanın çox uğurlu təcrübəyə malik olduğunu söyləmək olar.

Təsadüfi deyil ki, ötən müddət ərzində siyasi dialoq prosesi çərçivəsində yüzlərlə görüş təşkil olunub, çoxlu sayda müxtəlif səpgili məsələlər açıq və əməkdaşlıq şəraitində müzakirə olunaraq öz həllini tapıb. Təcrübə göstərir ki, dialoq mədəniyyəti əsasında qurulan dövlət və cəmiyyətin qarşılıqlı əlaqəsi güclü dövlətin inkişafına şərait yaradır. Azərbaycanda siyasi dialoq sağlam əməkdaşlıq mühiti əsasında formalaşıb və bu, həm də etibarlı münasibətlərin yaranması deməkdir. Prezident İlham Əliyevin də söylədiyi kimi, uğurla başlayan bu siyasi dialoq bizim siyasi sistemimizi gücləndirəcək və Azərbaycanın dayanıqlı inkişafının təmin olunmasına xidmət edəcək”.

*Ləman Əlizadə*

# Heydər Əliyev-100

# Azərbaycan kinematoqrafiyasının inkişafında yüksəliş dövrü



Azərbaycanın ictimai-siyasi, mədəni həyatında əsrin tarixinə yazdığı uğurları ilə əbədiləşən Ulu Öndər Heydər Əliyev xalqın düşüncə tərzində, oyanışında müstəsna rol oynamış siyasi liderdir. Dahi şəxsiyyət Heydər Əliyevin siyasi kursu nəticəsində Azərbaycan özünün müstəqilliyinin sütunlarını möhkəmlətdi, onun dünyaya inteqrasiya olunmasına töhfələrini verdi. Onun qısa bir zaman kəsiyində ölkənin həyatında dönüş yaradan islahatları xalqın sosial-mədəni həyatının mahiyyətinə zənginlik, ümumbəşərilik gətirdi. Bu, Ulu Öndər Heydər Əliyevin müdrik, uzaqgörən siyasətinin məntiqi idi. Xalqın milli ruhu, milli kökü zəminində formalaşan ideoloji xəttin əsasında Azərbaycançılıq ənənələri dayanırdı.

Azərbaycan Prezidenti İlham Əliyevin məlum Sərəncamı ilə 2023-cü ilin "Heydər Əliyev İli" elan olundu. Təbii ki, Böyük Şəxsiyyətin milli sərvətimiz olan zəngin və çoxşaxəli irsinin qorunub saxlanılması, öyrənilməsi hər bir azərbaycanlının müqəddəs borcudur. Azərbaycanı bir dövlət kimi tarixin ağır və sərt sınaqlarından çıxarıb, onu dünya dövlətləri arasında irəli çıxaran, ölkəmizi parçalanmaq təhlükəsindən xilas edən, respublikamızın inkişafına möhkəm zəmin yaradan Ulu Öndər Heydər Əliyevin siyasi kursu nəticəsində, Azərbaycan özünün müstəqilliyinin sütunlarını möhkəmlətdi. Dövlətçilik ənənələrinin yaşadılmasına xidmət edən tarixi nailiyyətlər istər sovet məkanında yaşadığımız illərdə, istərsə də müstəqillik illərində milli-mənəvi dəyərlərimizin, dilimizin qorunub saxlanılması, respublikamızın perspektiv inkişafı üçün möhkəm təməllər yaratmaqla Azərbaycanın uğurlu inkişafını təmin etmişdir.

## İDEYA DƏRİNLİYİ İLƏ FƏRQLƏNƏN FİLMLƏR

Məlumdur ki, ötən əsrin 70-ci illərində Azərbaycanda bütün sahələrdə olduğu kimi, mədəniyyət sahəsində də intibah yarandı. Sənətə, sənət adamlarına böyük qayğı və hörmətlə yanaşan, onlara sözün əsl mənasında hamilik edən Ümummilli Lider Heydər Əliyevin səyi və köməyi nəticəsində milli mədəniyyətimiz vüsətli inkişaf yoluna qədəm qoydu. Mədəniyyətin bir çox sahələrində olduğu kimi, kino sahəsində də nailiyyətlər yarandı. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin Azərbaycan kinematoqrafiyasının inkişafında rolu çox böyük olmuşdur. O, incəsənət növləri arasında kinonu çox yüksək qiymətləndirmiş, Azərbaycan kinematoqrafiya xadimlərinin xalqımızın keçmiş və müasir həyatından onlarca yüksək keyfiyyətli ekran əsərləri yaratdıqlarını xüsusi vurğulamışdır. XX əsrin 60-70-ci illəri kinematoqrafiyaya gənclərin böyük bir qrupunun gəlməsi ilə əlamətdar olmuşdur. Heydər Əliyev gənclərin irəli çəkiməsi kino sahəsində bir çox ideyalarını gerçəkləşdirmiş oldu. Onların orta və yaşlı nəslə mənsub xadimlərlə əməkdaşlığı Azərbaycan kinosunun peşəkar səviyyəsinin yüksəlməsinə, milli özünəməxsusluq, ideya dərinliyi ilə fərqlənən filmlərin meydana gəlməsinə səbəb olmuşdur. Bu dövrün filmlərində mənəvi-əxlaqi problemlər, müasir həyata müxtəlif baxışlar, insan xarakterlərinin təhlili, gənc nəslin formalaşması və s. mövzular başlıca yer tutur. Məsələn, "Uşaqlığın son gecəsi" (1969), "Gün keçdi" (1971), "Baş müsahibə" (1971), "Var olun, qızlar" (1973), "Həyat bizi sınayır" (1971), "Xoşbəxtlik qayğıları" (1976) və s. filmləri göstərmək olar. 70-ci illərin sonralarında və 80-cı illərdə Azərbaycan kinosunda mənəvi-əxlaqi problemlərə diqqət daha da artmışdır. Təbii ki, bu filmlərin istehsalında Heydər Əliyevin əməyi danılmazdır, Mərkəzi Komitə tərəfindən bir çox sovet ideologiyasına zidd olan filmlərin istehsalının dayandırılmasına, eləcə də səhnəyə buraxılmasına icazə verməyən şəxslərin qarşısına Heydər Əliyev sədd çəkdi. Rejissor R.Ocaqovun filmlərində mürəkkəb psixoloji vəziyyətlər, əsl insan ləyaqəti ilə əlaqədar müşahidələr, xudbinlik, sərtlik, mərhəmətsizliyə qarşı etiraz kimi mövzulara meyil özünü büruzə verirdi. Belə məzmunlu filmlərin ekran həyatı yaşaması şübhə altında idi. "İstintaq", "Bağlı qapı" (1981), "Park" (1983), "De ki, məni sevirsən" və s. o illərdə çəkilən filmlərdəki ideyalar bir mənalı qarşılanmırdı. Onu da qeyd edək ki, Ulu Öndər Heydər Əliyevin göstərişinə əsasən, efirdə yayımlanan bu və ya digər filmlər çox keçmir ki, ölkəmizdə, xaricdə böyük maraq doğurur.

Həmin illərdə tarixi-inqilabi janrda bir sıra maraqlı, orijinal filmlər ərsəyə gəldi. "Mosfilm" kinostudiyası ilə birgə yaradılmış N.Nərimanovun fəaliyyətindən bəhs edən "Ulduzlar sönmür" filmi bu baxımdan diqqətəlayiqdir. Yüksək ideyalılıq, vətəndaşlıq motivləri ilə kinematoqrafiyanın ifadə vasitələrinin uyarlığı, gözəl aktyor oyunu filmin mühüm məziyyətlərindəndir. "Səmt küləyi" (1973) filmi Azərbaycan kinosunun tarixində xarici ölkə (Çexoslovakiya) studiyası ilə birgə yaradılmış ilk əsərdir. "Axırıncı aşırım" (1971), "Qatır Məmməd" (1974) filmlərində sovet hakimiyyətinin ilk illərində Azərbaycan kəndində gedən sinfi mübarizədən bəhs olunur. "Sevinc buxtası" (1977), "O birigün gecə yarısı" (1981) filmləri də tarixi mövzulardadır. Heydər Əliyevin səyi və göstərişi əsasında "Nəsimi" (1973), "Dədə Qorqud" (1975), "Babək" (1979) kimi tarixi məzmunlu filmlər yarandı və ekran həyatı yaşadı.

Əlbəttə ki, o illərdə çəkilən filmlərdən söz açırıqsa İkinci Dünya müharibəsi mövzusunda çəkilmiş filmləri də qeyd etməliyik. "Bizim Cəbiş müəllim" (1970), "Bakıda küləklər əsir" (1974), "Tütək səsi" (1975) və s.

O illərdə Azərbaycan kinosunda uşaq filmlərinin istehsalına da mühüm əhəmiyyət verilir: "Qərib cinlər ölkəsində" (1987), "Şirin evdən getməsi" (1978), "Mən mahnı qoşuram" (1979), "Əzablı yollarla" (1982) yaradılmışdır. İkinci dünya müharibəsində Azərbaycanda cizgi filmləri çəkilməsinə yalnız təşəbbüs göstərilmişdir. 1966-cı ildə "Azərbaycanfilm"də rəssam və rejissor-multiplikator kursları açılmışdır. 1969-cu ildə "Azərbaycanfilm"də yaradılmış multiplikasiya sexində A.Axundovun Azərbaycan xalq nağılları əsasında yazdığı ssenari üzrə birhissəli rəngli "Cırtdan" multiplikasiya filmi çəkilmişdir. 70-ci illərdə "Fitnə", "Cücələrim", "Tülkü Həccə gedir", "Cırtdanın yeni sərgüzəştləri", "Çaqqal çaqqalın oğludur", "Siçan və Pıs-pısa xanım", "Günlərin bir günündə", "Dınqıl, sazım, dınqıl", "Xoruz", "Qız qalası haqqında əfsanə", "Dəcəl dovşan", "Uçan süfrə", və s. cizgi filmlər yaradılmışdır.

## ULU ÖNDƏRİN FƏALİYYƏTİ KİNOFİLMLƏRDƏ

1970-80-cı illərdə Azərbaycana rəhbərlik etdiyi dövrdə kino sənətinin inkişafına, həmin sahədə çalışanlara qayğı və hörmətlə yanaşan Ulu Öndər Heydər Əliyev müstəqillik dövründə hakimiyyətə qayıdışından sonra da respublikanın kino sənəti xadimlərindən qayğı və məhəbbətini əsirgəmədi. 1991-ci ildə Azərbaycanın müstəqillik əldə etməsi, cəmiyyət qarşında keyfiyyətcə yeni məqsəd və vəzifələr qoymuşdur. Azərbaycanda milli ideologiyanın və cəmiyyətin yeni inkişaf modellərinin qurulması və digər bu kimi sosial problemlər humanitar elmlərin öncül tədqiqat istiqamətlərinə çevrilmişdir. 1990-cı ildən sonra Azərbaycan kinosunda (1990-2000) çəkilən filmlərin sayı əvvəlki illərə nisbətən az olmuşdur. Bununla belə, Azərbaycan kinematoqrafçıları böyük əhəmiyyətli, həyati mövzulara müraciət edərək, estetik tələblərə cavab verə biləcək filmlər çəkmişlər. Kinematoqrafiya sahəsində Heydər Əliyevin fəaliyyətini əks etdirən, Onun ideyalarını tamaşaçılara təqdim edən filmlərə də yer ayrılmışdır. Müasir dövrümüzdə onun çoxsahəli fəaliyyətindən bəhs edən filmlərə maraqla baxılır. Heydər Əliyev haqqında çəkilən dəyərli filmlərdən silsilə filmlər yaratmış tanınmış rejissor Andrey Karpov tərəfindən çəkilmiş "Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev" filmidir. MDB ölkələrinin prezidentləri haqqında silsilə filmləri yaratmağı qarşısına məqsəd qoymuş A.Karpov birinci olaraq Ulu Öndər Heydər Əliyevə həsr etdiyi filmi çəkmişdir. Ölkə başçısının gərgin, mənalı, keşməkeşli həyatının ən vacib anları ardıcıllıqla canlandırmış bu filmin çəkilişində Azərbaycan kino-televiziya xadimləri də iştirak etmişlər.

Ümummilli Liderin iş yerində, evində, övladlarının, nəvələrinin əhatəsində təsvir edən epizodlar ustalıqla çəkilmişdir. Heydər Əliyevin Məkkə səfəri də filmə daxil edilmişdir. Azərbaycan Prezidentinin geniş, hərtərəfli fəaliyyətindən bəhs edən ikinci film N.Səfərovun ssenarisi əsasında operator O.Şixəliyevin çəkdiyi "Hamıya nümunə olan ömür yolu" filmidir. Bu əsərdə Heydər Əliyevin 1990-cı ildən sonrakı fəaliyyəti öz yığcam ekran ifadəsini tapmışdır.

Ssenarist və kinorejissor Vagif Mustafayevin Heydər Əliyevin fəaliyyətindən bəhs edən silsilə filmləri də diqqəti cəlb edir. Xüsusən onun çəkdiyi "Həqiqət anı" filmi tamaşaçıların marağına səbəb olmuşdur. Bundan başqa, Vaqif Mustafayev Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin həyat və fəaliyyətinə həsr olunmuş 12 serialı "H.Əliyev" filminin 9-nu çəkib. Buraya "General", "Birinci", "Moskva. Kreml", "Lider", "Tale", "Əsl məhəbbət haqqında", "Bir həsədin tarixi", "Professional","Patriot" filmləri daxildir. Onlardan "Əsl məhəbbət haqqında" film böyük uğur qazanıb. Bu film Moskvada keçirilən 4-cü Avrasiya teleforumunda əsas mükafata və xüsusi mükafata layiq görülüb. "Bir həsədin tarixi" filmi 2002-ci ildə Yekaterinburqda keçirilən sənədli filmlər festivalında əsas mükafatlardan birini, Moskvada keçirilən 5-ci Avrasiya Teleforumunda "Qran-Pri" mükafatına layiq görülüb. Bu filmlər müxtəlif ölkələrdə böyük uğurla nümayiş etdirilib. Bakıda məşhur dünya neft şirkətləri ilə bağlanmış saziş Vaqif Mustafayevin "Əsrin sazişi" filmində öz əksini tapmışdır.

Azərbaycan kino sənətinin inkişaf tarixi Heydər Əliyevin adı ilə bağlı olduğundan Ümummilli Lideri fəaliyyəti də məhz kinofilmlərdə yaşanır. Bu Böyük Şəxsiyyətin sənətə olan diqqətinin nəticəsidir.

***Zümrüd BAYRAMOVA***

# "Demokratiya sammiti" adı altında

# BAYDENİN QONAQLIĞI




Yenə də ABŞ ötən dəfə olduğu kimi, "demokratiya sammiti" adı ilə öz istədiyi siyasəti yürüdən ölkələri dəvət edərək, məhz istədiyi məclisi qurmaq niyyətini açıq-aşkar ortaya qoyub. Sammitə, daha dəqiq desək, məclisə dəvət olunanların siyahısına baxdıqda tam aydın olur ki, ölkələrin iştirak etməsi üçün heç də onların demokratik olması vacib şərt sayılmırmış. Vacib olan şərt həmin ölkələrin məhz Amerikanın istədiyi siyasəti yürütməsi, müstəqil siyasət yürütməkdən imtina etməsi imiş.

Bu ilin 30 mart tarixində keçirilməsi nəzərdə tutulan həmin o dırnaqarası "demokratiya sammiti"nə dəvət olunan ölkələrin siyahısı bir çox məqamlardan xəbər verir, çünki həmin ölkələrin bir çoxunda demokratiyadan danışmaq belə mümkün deyil. Əksinə, dəvət olunmayan ölkələrin dəvət olunan ölkələrdən fərqli olaraq, demokratik ölkə olması bir sıra suallar yaradır. Demokratiyadan əsər-əlamət olmayan, hətta daxilində vətəndaş müharibəsinin belə davam etdiyi ölkələrin dəvətlilər sırasında olması, demokratik ölkələrin isə dəvət olunmaması məsələnin mahiyyətini ortaya qoyur, özü də tam çılpaqlığı ilə.

Daxilində olduqca gərgin, mürəkkəb vəziyyət hökm sürən İraq Baydenin məclisinə demokratik ölkə kimi dəvət olunub. Parçalanma, dağılma təhlükəsi ilə daim üz-üzə olan ölkənin belə bir sammitə dəvətli olması çox gülünc görünür. Çünki Bayden nə qədər çalışsa da bu ölkədə baş verənlərə demokratiya donunu geyindirmək mümkün deyil. Həmçinin silahlı dəstələri ilə seçkilərə də, siyasətə də təsir edən Kenya, Qana, Nigeriya kimi Afrika ölkələrinin dəvətli olması çox absurddur. Axı bu ölkələrdə hansısa haqdan, hüquqdan söhbət belə gedə bilməz. Bu ölkələrdə söz azadlığına silah gücünə təsir, daha doğrusu, təzyiq varsa, hansı demokratiyadan söhbət gedə bilər? Bayden, yaxud ABŞ demokratiya dedikdə bunları nəzərə almırmı? Onu da nəzərə almırmı ki, dəvət etdikləri Konqo, Anqola kimi ölkələrə beynəlxalq təşkilatlar "azad olmayan" ölkə statusu veriblər? Əgər bir ölkə azad olmayan ölkə statusundadırsa, həmin ölkəni demokratik ölkə kimi sammirə dəvət etmək necə izah edilə bilər? Dırnaqarası "demokratiya sammiti" barədə suallar bitmək bilmir və hər bir sual, sualın da məntiqi cavabı həmin sammitin demokratik ölkələrin sammiti olmayacağını indidən bəlli edir. Çünki dəvət olunan ölkələrin əksəriyyəti nə seçki, nə media azadlığı, nə siyasi plüralizm baxımından demokratik standartların heç birinə cavab vermir.

Türkiyə kimi bir əsrdən çox demokratiya təcrübəsinə malik olan, demokratik bir ölkə, daxilində demokratiyadan əsər-əlamət olmayan bir çox Afrika ölkələri kimi həmin o dırnaqarası "demokratiya sammiti"nə dəvət olunmayıb. Halbuki, seçkilərə silahlı dəstələri ilə təzyiq edən ölkələrdən fərqli olaraq Türkiyədə keçirilən seçkilər bütövlükdə dünya üçün bir nümunə, bir örnək hesab olunur. Belə bir demokratik ölkə 2021-ci ildə də, bu il də dırnaqarası "demokratiya sammiti"nə dəvət olunmayıbsa, bu sammitin nə qədər demokratik olduğu, daha doğrusu, demokratik sammit olmadığı, Baydenin istədiklərini dəvət etdiyi bir məclis olduğu bəlli olur. Əgər ABŞ üçün İraq, Konqo, Anqola Türkiyədən daha demokratik hesab olunaraq məclisə "layiqli" bilinirsə, deməli, sammitin əslində demokratiya yox, siyasi məqsəd daşıyan məclis, yaxud da ki, Baydenin qonaqlığı olduğu bir daha ortaya çıxır. Əslində, ABŞ belə bir seçimlə deyilənləri etiraf belə etmiş sayılır.

Təkcə Türkiyə deyil, Macarıstan kimi bir Avropa ölkəsi də sammitə dəvətli deyil və bu məqam diqqəti daha çox cəlb edir. Həm diqqəti cəlb edir, həm də məsələnin nə yerdə olduğunu aydınlaşdırmaq üçün kifayət qədər maraqlı olduğu təkzib edilə bilməz. Bilirik ki, Macarıstan Avropa İttifaqının üzvüdür və belə bir ölkə niyə, nə səbəbə sammitə səvətli olmasın axı? Bir halda ki, Macarıstan Avropa İttifaqının bərabərhüquqlu üzvüdür, o zaman nə adla Bayden "demokratiya sammitinə" bu ölkəni dəvət etməyib? Axı sözügedən ittifaqın bərabərhüquqlu üzvü onun demokratiya, insan haqları kimi məsələlərlə bağlı bütün şərtlərinə əməl etməlidir və edir də, əks halda orada yer ala bilməz. Bunu da Bayden başa düşmürmü? Yaxşı başa düşür, anlayır, amma anlasa da belə həmin ölkəni dəvət etmir. Daha dəqiq desək, öz məclisində, yaxud qonaqlığında görmək istəmir, özü də Türkiyə ilə yanaşı, Macarıstan kimi iki NATO üzvü olan ölkəni görməyi arzulamır. Bir halda ki, demokratiya, insan haqları kimi məsələlər nəzərə alınmadan dəvətlər olunur, deməli, sözügedən sammitə həqiqətən də qonaqlıq adı vermək tam məntiqidir. Çünki Bayden ancaq öz "istədiklərini" dəvət edir, özü də ölkədə demokratiyanın olub-olmaması nəzərə alınmadan. Yaxşı, bəs Baydenin, yaxud ABŞ kimi bir ölkənin istədikləri hansı ölkələrdir və onlar nə ilə fərqlənməlidirlər ki, rəsmi Vaşinqtonun siyahısına düşmüş olsunlar?

Hər şey göz önündədir və görünən odur ki, ABŞ müstəqil siyasət yürüdən ölkələri dəvət etmək fikrində deyil, heç olmayıb da. Rəsmi Vaşinqton ABŞ-ın əmrinə tabe olmayan, göstərişlərinə əməl etməyən ölkəni demokratik ölkələr siyahısında görmür. Bayden də məhz bu "ənənəyə" sadiqlik nümayiş etdirir və istər seçkilərin, istərsə də siyasi proseslərin nə qədər demokratiya prinsiplərinə uyğun olmasına məhəl qoymadan öz məclisinə, və ya qonaqlığına öz əmrlərinə müntəzir olan, göstərişləri ilə hərəkət edən ölkələri, hətta "azad olmayan" ölkələri layiqli hesab edir. Görünür, silahlı qruplaşmaların hökm sürməsinə, qəbilə və klanların siyasətə təzyiq etməsinə baxmayaraq ABŞ prezidenti üçün ölkəsinin əmr və tapşırıqları ilə oturub-durmaq həmin ölkələrə vacib imiş ki, Baydenin siyahısında olsunlar. Bu yanaşma absurddur, gülüncdür və belə olan halda sammitin adını dəyişib "demokratiya sammiti" yox, Bayden qonaqlığı qoysunlar ki, barı bundan sonra demokratiyadan danışmağa yer qalsın.

Məsələ burasındadır ki, Baydenin dırnaqarası "demokratiya sammiti" barədə təkcə biz belə fikirdə deyilik və bu sammitin demokratiya ilə heç bir əlaqəsinin olmadığı qənaəti təkcə bizə məxsus deyil. Xatırladaq ki, 2021-ci ildə keçirilən sammit barədə dünyaca nüfuzlu "The Ekonomist" yazırdı ki, "Baydenin demokratiya sammiti gözlənildiyi qədər demokratik" deyil və "sammitə dəvət edilməyən ölkələr dəvət edilənlərdən daha demokratikdir". Nəşrin belə bir qənaəti əlbəttə ki, məhz "azad olmayan" ölkələrin demokratik ölkə kimi dəvətli olması, həqiqətən də demokratik ölkə olmasına baxmayaraq bir çox ölkələrin dəvətli olmaması ilə əlaqədardır. Yəni, bu həqiqət bütün dünyada qəbul ediləndir və gəlinən qənaət yalnız bizim qənaətimiz deyil. Eyni zamanda qeyd etdiyimiz kimi, sammitə dəvət olunan ölkələrin məhz ABŞ-ın əmr və tapşırıqlarına əməl edən, həmin göstərişlərlə hərəkət edən ölkələr olduğunu da sözügedən nəşr qeyd edir. Nəşr qeyd edir ki, sammitə dəvət olunan ölkələr demokratik dəyərlərdən daha çox ABŞ-ın maraqlarına cavab verir. Deməli, artıq bu sammitin Bayden qonaqlığı olduğunu bütün dünya qəbul edir və bu barədə dünyanın nüfuzlu nəşrləri də açıq şəkildə fikirlər paylaşırlar.

ABŞ hər dəfə olduğu kimi, yenə də Azərbaycan kimi sülhsevər, demokratik dəyərlərə hörmətlə yanaşan bir ölkəni deyil, Ermənistan kimi terrorçuluq, separatçılıq siyasəti yürüdən, soyqırımlara imza atan, etnik təmizləmə siyasəti yürüdən, tolerantlıqdan əsər-əlamət olmayan, demokratik dəyərləri ayaqlar altına atan, insanların hüquq və azadlıqlarına məhəl qoymayan bir ölkəni öz "qonaqlığına" dəvət edib. Heç şübhəsiz ki, istər media azadlığı, istərsə demokratik dəyərlərin inkişafı baxımından Azərbaycan nəinki işğalçı ölkə olan Ermənistan, ümumilikdə region ölkələri ilə müqaisəyə gəlməz dərəcədə üstündür, amma dırnaqarası "demokratiya sammiti"nə dəvətli deyil. Elə Baydenin məclisində demokratik ölkələrin olacağına inamsızlıq üçün bu məqam da yetərlidir və Ermənistanın sammitə dəvət edilməsi seçim zamanı əsas prinsipin demokratiya olmadığını hər dəfə biabırçı şəkildə ifşa etmiş olur. Məgər Bayden, yaxud rəsmi Vaşinqtin xəbərsizdirmi ki, erməni baş nazir Nikol Paşinyan hakimiyyətə gəlişindən sonra da siyasi rəqiblərini təqib edib? ABŞ prezidentinin bəlkə xəbəri yoxdur ki, Ermənistanın baş naziri opponentlərini asanlıqla həbsə atıb? Bəlkə müxalif siyasətçi, eləcə də jurnalist Mqer Yeqizaryanın həbsxanada öldüyü faktı barədə də Vaşinqton xəbərsizdir? Bir zamanlar küçə nümayişlərində demokratiyanı eyni ilə ABŞ siyasətçiləri kimi bayraq edən Nikolun hakimiyyətə gəlişindən sonra öz rəqibləri saydığı Koçaryan və Sarkisyanı cinayət işi ilə təqib etdiyi barədə də Bayden bilmirmi? Bilir, amma 2022-ci ilin aprel-iyul aylarında baş tutan etiraz aksiyaları qəddarlıqla dağıdılan, 2100-dən çox etirazçı saxlanılaraq həbs edilən, polisi həm etirazçılara, həm də aksiyaları işıqlandıran KİV nümayəndələrinə qarşı sərt davranış nümayiş etdirən, ümumiyyətlə, reallıqda demokratiyadan əsər-əlamət olmayan bir ölkəni "demokratiya sammiti" adı ilə təşkil olunan tədbirə dəvət edirsə, deməli, bu məclis elə Bayden qonaqlığıdır, başqa bir şey deyil.

***İnam Hacıyev***

# Venesiya Komissiyası arxivlik olanları xilas etməyə çalışır

## İlqar Məmmədov və Əli Kərimli siyasi arenanı tərk edirlər

44 günlük Vətən müharibəsində Azərbaycan Prezidenti, Yenilməz Sərkərdə İlham Əliyevin rəhbərliyi ilə Müzəffər ordumuzun 30 il erməni işğalı altında olmuş torpaqlarımızı azad etməsi beynəlxalq aləmdə ölkəmizin imicinin, inam və etimadının daha da möhkəmlənməsinə imkanlar yaratdı. Artıq beynəlxalq birlik, ayrı-ayrı ölkələr Azərbaycana daha çox hörmət bəsləyir və siyasi, hərbi təşəbbüsünə açıq formada dəstək verirlər. Son vaxtlar Azərbaycanla iqtisadi, ticari əməkdaşlıq sazişlərinin imzalanmasına can atan ölkələrin sayının artması da, məhz dövlətimizin gücünə güc qatan Vətən müharibəsində əldə etdiyi parlaq qələbənin nəticəsidir. Beynəlxalq aləmdə Azərbaycanın mövqelərinin möhkəmlənməsi və iqtisadi əlaqələrinin genişlənməsi ölkə əhalisinin sosial-rifah halının daha da yaxşılaşmasına xidmət edir. Söz yox ki, əldə olunan uğurlar yeni qanunvericilik aktlarının qəbul edilməsinə zərurət yaradır. Hansı ki, bu qanunlar ümumilikdə cəmiyyətin inkişafına, demokratik proseslərin sürətlənməsinə təkan verəcək. Daha doğrusu, artıq bir çox yeni qanunlar qəbul edilib, idarəetmədə köklü islahatlar, dəyişikliklər həyata keçirilib. Xüsusilə də, Milli Məclis tərəfindən "Siyasi partiyalar haqqında" qanunun qəbul edilməsi və Yenilməz Sərkərdə, ölkə Prezidenti İlham Əliyev tərəfindən cari ilin yanvarın 11-də qanunun imzalanması, ölkəmizin siyasi münasibətlər sisteminə yeni nəfəs gətirəcək, siyasi partiyalararası əməkdaşlıq mühitini genişləndirəcək, sağlam rəqabətə yol açacaq.











### Qanuna görə, vətəndaşlar öz siyasi əqidə və ideyasına görə könüllü olaraq istənilən birliyə daxil ola bilərlər

"Siyasi partiyalar haqqında" qanunda "Siyasi partiya" anlayışı "Bu Qanunda siyasi partiya dedikdə ümumi siyasi ideyaları və məqsədləri olan, ölkənin siyasi həyatında iştirak edən Azərbaycan Respublikası vətəndaşlarının birlikləri nəzərdə tutulur. Siyasi partiyalar Azərbaycan Respublikası Konstitusiyasına və qanunlarına uyğun olan vəzifələrini və məqsədlərini əsas götürərək Azərbaycan Respublikası vətəndaşlarının siyasi iradəsinin formalaşdırılmasında fəal iştirak edirlər" kimi qeyd olunur. Azərbaycan Respublikasının Konstitusiyanın 58-ci maddəsində (Birləşmək hüququ) ifadə olunur. Qanuna görə, vətəndaşlar öz siyasi əqidə və ideyasına görə könüllü olaraq istənilən birliyə daxil ola bilərlər.

Nəzərə almaq lazımdır ki, əvvəlki qanun 1992-ci il də qəbul edilib. Belə götürsək, hazırkı partiyaların böyük əksəriyyəti ötən əsrin 90-cı illərində yaranan partiyalardır. Hansı ki, bu partiyalar yeni, müasir dövrün tələbləri ilə ayaqlaşa bilmirlər. Bəzən partiya funksionerləri meydan dövrünün ab-havasına uyğun olaraq çağırışlar edir, cəmiyyətdə müəmmalı suallar doğuran açıqlamalar verirlər. Elə partiya sədrləri də var ki, daxili və xarici qüvvəllərin tələb və göstərişlərinə uyğun olaraq prezident, parlament, bələdiyyə seçkilərində iştirak etməkdən imtina edirlər. Bununla da partiyalarda təmsil olunan üzvlərini azad şəkildə siyasi iradələrini ifadə etmək hüququndan məhrum edirlər.

Azərbaycan Respublikasında siyasi partiyaların fəaliyyəti və inkişafı üçün şərait yaradılıb. "Siyasi partiyalar haqqında" qanunda da göstərilir ki, dövlət siyasi partiyaların hüquqlarına və qanuni mənafelərinə əməl olunmasına, Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına uyğun olaraq onların öz nizamnamə vəzifələrini yerinə yetirmələri, habelə öz sənədlərini dövlət mətbuat orqanları vasitəsilə yaymaları üçün bərabər hüquqi şərait yaradılmasına, partiyaların rəhbər orqanlarının mühafizəsinə və təhlükəsizliyinə təminat verir. Dövlət parlament seçkilərində iştirak edərək Milli Məclisdə təmsil olunan siyasi partiyaların maliyyələşməsini də həyata keçirir. Hazırda dövlətin qanunvericiliyin tələbinə uyğun olaraq yaratdığı şəraitdən 12 siyasi partiya yararlanır. Yeni qəbul edilən "Siyasi partiyalar haqqında" qanuna əsasən Ədliyyə Nazirliyindən qeydiyyatdan keçən siyasi partiyaların əksəriyyəti maliyyə yardımları ala biləcəklər.

### Bədbəxt və yazıq müxalifət 5 min üzvü toplamaqda aciz qalıb

Dünyanın aparıcı 20 ölkəsinin təcrübəsi öyrənilərək, tətbiq edilən "Siyasi partiyalar haqqında" qanunu Azərbaycan cəmiyyəti dəstəkləyir və qanunun siyasi partiyaların maraqlarına tam cavab verdiyini qeyd edirlər. Söz yox ki, hər dəfə qaranlıq otaqda birə axtarmağa çalışan bəzi üzdəniraq siyasətçilər yenə də ənənələrinə uyğun davranış nümayiş etdirirlər. Təfriqə yaratmağa adət edən boşboğazlar iddia edirlər ki, Venesiya Komissiyası tərəfindən "Siyasi partiyalar haqqında" qanuna rəy verilmədiyi üçün qanun mükəmməl sayıla bilməz. Birincisi, Venesiya Komissiyası dünyanın ayaqda qalmasına nəzarət edən əsas dayaq deyil ki, onun da rəyinə ümid edilsin. İkincisi, Venesiya Komissiyasının 225 təklifindən 215 -i qanunda öz əksini tapıb. Üçüncüsü, Venesiya Komissiyası və parlamentdə təmsil olunan siyasi partiyalar təklif edirdilər ki, qanunun qəbul edilməsindən öncə ictimai müzakirələr təşkil edilsin. Təklif nəzərə alındı və ilk olaraq qanun layihəsinin Milli Məclisin saytında yerləşdirilməsi təmin edildi. Üç dəfə Milli Məclisdə müzakirələr keçirildi, bütün siyasi partiya sədrlərinin, hüquqşünasların, ictimai fəalların fikirləri dinlənildi. Qanun layihəsi ilə bağlı Milli Məclisə 320 təklif daxil oldu, komitələrdə müzakirələr aparıldı, KİV-də debatlar təşkil edildi, daha sonra 3 oxunuşda parlamentin plenar iclaslarında baxıldı və qanun təsdiqləndi. Bundan sonra qanunda qüsur axtarmaq, qeybət xarakterli açıqlamalar vermək, sadəcə, qərəzkarlıq və sifarişlə ağa qara ləkə atmağa cəhd göstərməkdir.

Ənənəvi hay-küyçülər iddia edirlər ki, qanunda üzvlərin sayının 5.000 olması tələbinin qoyulması onların fəaliyyətlərinə əngəllər yaratmağa hesablanıb. Fakt budur ki, hər dəfə AXCP, Müsavat, ADP, "Real" və digər partiyalar hər fürsətdə iddia edirdilər ki, onların 70-80 min, bəzən isə 100-120 min üzvlərinin olduğunu iddia edirlər. Məsəl var deyərlər, "insanın gücü meydanda bilinər". Görünən ondan ibarətdir ki, 70-80 min üzvü olduğunu iddia edən müxalif partiya funksionerləri hazırda qanunvericiliyə görə, 5 min üzvü toplamaqda aciz qalıblar. Halbuki, qanun layihəsi ilkin mərhələdə ictimai müzakirəyə çıxarılarkən partiya üzvünün 10 min nəfər olması nəzərdə tutulurdu. Bəzi partiyaların sosial baza baxımından ciddi problemlər yaşaması səbəbindən üzvlərin sayı 5 min təklif olundu və təklif qanunda əksini tapdı. Müxalifətin narazılıq etdiyi müddəalardan biri də seçkilərdə iki dəfə iştirak etməyən partiyaların fəaliyyətinə xitam verilməsidir. Necə ola bilər ki, siyasi partiya olasan və müəyyən sayda üzvlərin ola, ancaq seçkilərdə iştirak etməyəsən. Bu cür hal çoxluqda olan sıravi üzvlərin hüquqlarının başda oturan iki-üç nəfər tərəfindən pozulması deməkdir.

### ADP, AXCP, Müsavat və "Real" partiyaları fəaliyyətlərini dayandıra bilər

Partiyaların mövcudluğu, gücü seçkidən-seçkiyə daha çox bilinir. Əgər beş ildən bir keçirilən prezident, parlamet və bələdiyyə seçkilərində həmin partiya iştirak etmirsə, bu halda o partiyanın Ədliyyə Nazirliyinin qeydiyyata alınan siyasi partiyalar siyahısında qalması da yolverilməzdir. Haqlı olaraq da yeni qanunda iki dəfə prezident, parlament və bələdiyyə seçkilərində iştirak etməyən siyasi partiyanın məhkəmə qaydasında dövlət qeydiyyatına xitam verilir. Haşiyə çıxaraq bir məsələni qeyd etmək lazımdır ki, onsuz da hazırkı müxalifət partiyalarının seçkilərdə iştirak edib və ya etməmələrinin Azərbaycan cəmiyyəti üçün heç bir önəmi yoxdur. Çünki AXCP, "Real", Müsavat kimi partiyalar seçkilərdə iştirak etsələr belə, məğlubiyyətə düçar olublar. Bu kimi üzücü, ağır fəlakət 30 ilə yaxındır ki, onları izləyir. Bir növ seçkilərdə məğlub olmaq onların alın yazısına çevrilib. Çox vaxtı seçkilərdə iştirak etməməklə gözlənilən məğlubiyyəti sığortalamağa çalışırlar. Lakin yeni qanun, artıq onlara şans verməyəcək. Seçkilərə qatılmasalar, fəaliyyətləri dayandırılacaq. Qeydiyyatsız isə siyasi gündəmə çıxıb, ən azı sosial şəbəkələrdə və özlərinin yaratdıqları saytlarda pafoslu açıqlamalarla, hədələyici mesajlarla çıxış edə bilməyəcəklər. Necə ki, 2014-cü ildən dövlət qeydiyyatı olmadan hay-küylü açıqlamaları ilə diqqəti cəlb etməyə çalışmış Qubad İbadoğlu Azərbaycan Demokratiya və Rifah Partiyasının buraxdığını elan edib. Qubad İbadoğlunun sözlərinə görə, bu addımı "Siyasi partiyalar haqqında" Qanuna uyğun olaraq atıb: "Prezidentin 11 yanvar 2023-cü ildə təsdiqlədiyi "Siyasi partiyalar haqqında" Qanunun 4.7.-ci maddəsinə görə siyasi partiyanın dövlət qeydiyyatına alınmadan fəaliyyət göstərməsinə yol verilmir. Odur ki, ADR Partiyası olaraq fəaliyyətimizi qanunun tələblərinə uyğunlaşdırmaq məcburiyyətindəyik. Bununla əlaqədar olaraq, partiyanın mərkəzi icra strukturlarının buraxılması və təyinatlı rəhbər şəxslərin fəaliyyətlərinə xitam verilməsinə dair sərəncam imzalamışam".

### Müxalifət liderləri ənənəvi amplualarından çıxış etməklə, kimsəni təəccübləndirə bilməyəcəklər

Qeyd etmək lazımdır ki, "Siyasi partiyalar haqqında" Qanunun qəbul edilməsindən sonra Azərbaycanda 5 siyasi partiya fəaliyyətini rəsmi olaraq dayandırıb. Azərbaycan Sosial Rifah Partiyası (ASRP), Azərbaycan Naminə Alyans Partiyası (ANAP), Azərbaycan Təkamül Partiyası, Birlik Partiyası və Azərbaycan Azad Respublikaçılar Partiyası öz hüquqi fəaliyyətlərinə xitam vermək barədə qərar qəbul edib. Mövcud reallıqlara və aparılan araşdırmalara əsasən demək olar ki, ADP, AXCP, Müsavat və "Real" partiyaları da fəaliyyətlərini dayandıra bilərlər. Çünki sözügedən partiyalar cəmiyyət tərəfindən qəbul edilmirlər. Sosial bazaları da yalnız qohum -əqrəbalarından ibarətdir. 5 min nəfərlik üzvü isə toplamq gücünə malik deyillər. Hansısa qapını döyüb, imza diləndsələr, onlara rədd cavabı verəcəklər. Baxmayaraq ki, Venesiya Komissiyası Bakıdakı emisarları vasitəsi ilə Əli Kərimliyə, Sərdar Cəlaloğluna, İlqar Məmmədova və Arif Hacılıya rəhbərlik etdikləri partiyaları buraxmağa tələsməməyi və hökumətlə bu istiqamətdə qarşıdurmaya getmək mesajını çatdırıblar. Bu səbəbdən də yaxın vaxtlarda İlqar Məmmədov və Əli Kərimli qaragüruh mövqedən çıxış edib, xalqı və dövləti jantaj etməyə başlayacaqlar. Onların hay-küylərinə yerli xəbər saytları və sosial şəbəkələrdəki bəlli ünsürlər dəstək verəcəklər. Hər vəchlə çalışacaqlar ki, xaricdən verilən tezislərdən kənara çıxmadan yeni qanunla bağlı separatçı fikirlər səsləndirib, insanları çaşdırmağa çalışsınlar. Ancaq bir məsələni unutmaq olmaz ki, onsuz da meydan təfəkküründən hələ də xilas olmayan indiki dağıdıcı müxalifət patiya sədrləri 1993-cü ildən bəri şər və böhtanlar səsləndirirlər. Yenidən ənənəvi amplualarından çıxış etməklə, kimsəni təəccübləndirə bilməyəcəklər. Beləcə hay-küy qaldırmaqdan usanıb dayanacaqlar, nəhayətdə "biz bu qanuna etiraz əlaməti olaraq, siyasətdən gedirik" deyib, siyasi arenanı tərk edəcəklər.

**İ.ƏLİYEV**

# Makronun qara martı

**Fransa əvvəlcə "sarı jiletlilər"in, bu gün isə "pensiyaçılar"ın etiraz aksiyaları ilə qaynayır. Hökumətin, daha doğrusu Makronun islahat adı altında cəmiyyətlə növbəti dəfə "qol güləşi" yarışına çıxması Fransanın siyasi dairələrini narahat etməkdədir. Makron xalqı dinləmək istəmir, hətta deputatların parlamentdə sənədi təsdiqini gözləmədən ölkə konstitusiyasının müvafiq maddəsinə uyğun olaraq bu islahatlara gediləcəyini ultimativ şəkildə bildirib. Fransa prezidentinin ciddi olduğunu Parisin küçələrində baş verən hadisələr də təsdiq edir. Polis sözün əsl mənasında insanlığa sığmayan əməllərlə məşğuldur, küçə və meydanlarda olan hər kəs döyülür, zorakılığa məruz qalır, ən yaxşı halda isə həbs edilir.**









Fransa uzun müddətdir davam edən böhranla baş-başadır. Polis meydanlarda etirazçılara qarşı vəhşiliklər törətməklə yanaşı həm də tətillərin görünən simvollarından birinə çevrilmiş zibil yığınlarını təmizləyir, həm hökumətə etimadsızlıq səsverməsinə dəstək verməyən deputatları himayəsinə götürür, həm də limanların və neft emalı zavodlarının yanacaq daşınmasını dayandırmış işçilərini işə məcbur edir. Ola bilsin ki, məktəb imtahanlarının keçirilməsinə də nəzarət etsin. Nəzərə alsaq ki, müəllimlər də tətilçilərin sırasına qoşulub, polisin təhsil sahəsində "islahatlar" aparacağı gözləniləndir.

Fransanın daxili işlər nazirinin sözlərinə görə, hələlik vəziyyət nəzarət altındadır, lakin hər gün daha çox həbslər və qarşıdurmalar baş verir. Etirazların çıxışları, "sarı jiletlilər" ifadəsi mətbuatda dolaşmaqdadır. İzahatsız da başa düşmək olar ki, hadisələrin gedişatı Fransa və onun hakimiyyəti üçün yaxşı heç nə vəd etmir. Artıq prezident Em-






manuel Makronun keçmiş müşavirləri xəbərdarlıq edir: 2018-2019-cu illərdə yanacağın qiymətinin artırılmasından narazı olanlar da üsyana qoşulublar, pensiya islahatları isə bütün təbəqəni narahat edir. Bəs, etiraz epidemiyası deputatların uğursuz səsverməsinə alternativ olacaqmı? Hüquq-mühafizə orqanlarının əməkdaşları isə "sarı jiletlilər" dövründə olduğu kimi insanları çaxnaşmaya salan "sıx mühasirə" taktikasına keçiblər.

Bu arada Avropa Parlamentinin keçmiş deputatı, Fransa Vətənpərvərlər Partiyasının lideri Florian Filippo bildirib ki, Fransa prezidenti Emmanuel Makron Ukrayna Silahlı Qüvvələrinə mərmilər verməklə III Dünya Müharibəsini açmağa çalışır. Bu barədə o, öz Twitter səhifəsində yazıb. Siyasətçi Fransa dövlət başçısının Ukrayna prezidenti Vladimir Zelenskiyə "bütün növ raketlərin tədarükünü sürətləndirəcəyini" açıqlamasına diqqət çəkib. "Parisdə pensiya və xəstəxanalar üçün pul yoxdur, amma Ukrayna üçün pul var. O, üçüncü dünya müharibəsinə can atır. Bu adam ictimai təhlükədir! Rədd ol!", Filippo vurğulayıb.

Filippo daha əvvəl bildirib ki, getdikcə daha çox fransız Ukraynadakı münaqişənin mahiyyətini anlamağa başlayıb. Bundan əvvəl o, Fransanın NATO-dan çıxmalı olduğu fikrini ifadə edib, çünki onun sözlərinə görə, Avropanı üçüncü dünya müharibəsinə sövq edən Şimali Atlantika Alyansı və ABŞ-dır.

Fransa prezidenti Emmanuel Makronun isə başı yenə dərdə girib, ölkədə pensiya islahatı ilə bağlı müsahibənin ortasında "lüks" saatını çıxarması tamaşaçıların qəzəbinə səbəb olub. The Guardian-ın yazdığı məqalədə deyilir ki, Macron 1 milyondan çox fransızın bütün Fransada etiraz etmək üçün küçələrə çıxmasından bir gün əvvəl televiziyaya çıxdı. Onlar hökumətin pensiya yaşını 62-dən 64-ə qaldırmasına qarşı çıxır və prezidentin istefasını tələb edirlər.

Prezidentin müsahibəsi onun "təkəbbürlü və ictimai maraqlara xor baxdığı" kimi ittihamlarla qarşılanıb. Onun verilişin gedişi zamanı bahalı saatını çıxarması daha çox hiddətə səbəb olub. Bəzi izləyicilər "lüks" olaraq xarakterizə edilən saatın milyon avro qiymətinin olduğunu desələr də, bəziləri vaxt ölçən cihazın qiymətinin şişirdildiyini deyirlər. Makronun saatını ehtiyatla çıxarması və müsahibə zamanı əllərini masanın altında gizlətməsi tamaşaçılar tərəfindən onun adi fransızların yox, "varlıların prezidenti" olması qiymətini alıb.

Tədricən hamı Fransada seçicilərdən tutmuş siyasətçilərə qədər hər kəs baş verən böhrana öyrəşiblər. Lakin etiraz aksiyalarının tezliklə dayanacağını deyən ekspertlər də var. Həmkarlar ittifaqları pensiyalar haqqında qanuna bir sıra əlavələr edib və qanunvericilərin özləri də bu islahatların səmərəsiz olacağını düşünürlər.

## Uvertüra kimi böhran

2017-ci ildə islahatlar aparan, Makronu prezident seçən ölkə niyə indi küçə etirazları, tətillər və referendumlarla dəyişikliyin qarşısını almağa çalışır? Buna səbəb Konstitusiyanın 49.3-cü maddəsi olub ki, bu da qanunun səsvermə olmadan qəbul edilməsinə icazə verməsidir. Baş nazir Elizabeth Bourne bunu martın 16-da pensiya haqqında qanun layihəsinin parlamentin aşağı palatasında - Milli Assambleyada çoxluğu qazana bilməyəcəyi aydın olduqda istifadə edib. Böhran demək olar ki, konstitusiya səviyyəsinə gəlib çatıb. Əgər səsvermədə etimadsızlıq daha 9 səslə qazanılsaydı, palatanın buraxılması və növbədənkənar seçkilər baş tutacaqdı, nəticədə parlamentdəki barışmaz deputatlara daha bir neçəsi əlavə olunacaqdı. Lakin kabinet sağ qalmağı bacardı, deyə bilərik, amma hələlik...









Səsvermənin nəticəsi "təxirə salınmış istefa" da adlandırılır. İndi hakimiyyətin islahatlara hər yeni yanaşması çıxılmaz vəziyyəti təkrarlamaqla təhdid edir. Kontekst son dərəcə vacibdir: Hökumətinin 10 ayında 49.3-cü maddə 11 (!) dəfədir ki, istifadə olunur. Eyni zamanda 16 dəfə etimadsızlıq səsverməsinin verilməsinə cəhd edilib. Kabinet, yumşaq desək, heyrətləndirməkdə davam edir və böhranın uzunmüddətli olacağını artıq proqnozlaşdırmaq olar.

Analitiklər bildirirlər ki, Makron islahatların dəfələrlə siyasi konyukturaya qurban verildiyi altı illik hakimiyyətin bəhrəsini görür. "Sarı jiletlilər" böhranı, sonra pandemiya, 2022-ci ildə çətin seçkilər, indi isə geosiyasətdəki Ukraynadır. Milli Assambleyada, eləcə də küçələrdə Makron "mərkəzdən" idarə etmək üçün yaratdığı və ya gücləndirdiyi siyasi ifratlarla üzləşir. Reformizmin məntiqi izlənməkdən çıxıb. Onu başqası - ifrat sağa və ifrat sola qarşı "respublika cəbhəsi" əvəz edib.

## Gözləyin və ya hərəkət edin?

Kütləvi etirazlara baxmayaraq, korporativ sifariş kimi həyata keçirilən pensiya islahatından təşvişə düşən Makron bu suala ilk cavabını martın 22-də verib. Televiziyaya verdiyi müsahibədə o, "nəzərdə tutulan kursdan dönməyəcəyini" bildirib. Hökumət isə müqavimət göstərdi, buna baxmayaraq islahat qüvvəyə minəcək. Küçələrdə "qeyri-qanuni" və "qanunsuz" etirazlara yol verilməyəcək, lakin onlar "qanuni narazılığa" qulaq asacaqlar. Və Makron hökuməti yeni islahatları diqqətlə hazırlamağa çağırır. Məqsəd "tam məşğulluq və Fransanın yenidən sənayeləşməsi"dir və bunun üçün ÜDM-in 14%-nin pensiyaya getdiyi ölkədə büdcə balansı lazımdır. Şərhçilər deşifrə ediblər: modernləşmə adı altında demokratik təsisatlara korporativ təzyiq zəruri şərdir. Fransanın buna ehtiyacı var.

Fransa isə başqa cür düşünür. Etirazların əsas əsəbi isə artıq pensiya qanunu deyil, onun qəbulu üsuludur. 20-ci əsrin ən mühüm nailiyyəti sayılan sosial dövlətin hansı adla məhv edildiyini bizə izah edin? Hansı layihə üçün? Bu, əslində Makronun çıxışından gözlənilən idi. "Prezident evi yanan adama bənzəyir və o, cibindəki açarla özünə təsəlli verir" deyə prezidentyönlü MoDem partiyasından olan deputat və parlamentin xarici əlaqələr komissiyasının rəhbəri Jan-Lui Burlanj izah edir. "Bəli, 49.3-cü maddədən istifadə etmək qanunidir. Lakin fransızların, parlamentin və həmkarlar ittifaqlarının 80%-i qanuna qarşı çıxanda siz yalnız parlament prosedurlarının legitimliyi ilə buna qarşı çıxa bilməzsiniz...".

Bu, Beşinci Respublika üçün yeni vəziyyətdir: xalqın iradəsi onun seçdiyi hakimiyyətin iradəsinə ziddir. "Sarı jiletlilər" böhranında Makron "gözləmə taktikasını" tətbiq etdi: o, ölkə etirazlardan yorulana qədər gözlədi və birgə düşüncənin bəhrəsi kimi verilən güzəştlərə getdi. Yeni böhrandan çıxış yolu tapmaq üçün orada olmayan həllər lazımdır.

Fransanın ən gənc prezidenti Makronun bəlkə də ən gözlənilməz rəqibi Milli Assambleyanın ən yaşlı deputatı 70 yaşlı Şarl de Kurson mərkəzçilərdən hökumətə etimadsızlıq göstərmək tələbini irəli sürüb. Maraqlıdır ki, bunu bütün deputatlar dəstəkləyib. De Kurson həm də aristokratdır, onun uzaq əcdadı Markiz Lepeletier de Saint-Fargeau 1792-ci ildə Konvensiyanın deputatı kimi kralın edamına səs vermiş, kralçı tərəfindən öldürülmüşdür. Panteonda dəfn edilmişdir. Deputatın babası Markiz Leonel de Moustier isə 1940-cı ildə Fransanı Hitlerin qucağına aparan və sonradan Müqavimətdə iştirak edən Marşal Petainin xüsusi səlahiyyətlərinin əleyhinə səs verən yeganə sağçı deputat idi. Assambleyadakı həmkarları deyirlər ki, bu aristokratlar ailəsində onlar Respublikanın müdafiəsinə qalxmağı bilirlər. Əslində biri padşahın edamının tərəfdarı idi, digəri nasistlərlə əməkdaşlığa qarşı idi, üçüncüsü isə monarxist davranışlarla hökuməti çökdürmək istəyir.

Belə bir siyasi şəcərə gələcəyə aparırmı? Millət vəkili sol NUPES blokundan olan deputatların Marin Le Penin Milli Assosiasiya fraksiyasına etimadsızlıq səsverməsini dəstəkləməkdən imtina etdiyi parlamentdə ifrat solçu və ifrat sağı birləşdirməyin yolunu tapıb. De Kurson petisiyasını belə əsaslandırıb: "Makron sosial ölçüləri nəzərə almır və qərar qəbul etmək üçün hakimiyyətdə olmağın kifayət etdiyini düşünür. İndi bu dramatikdir!". Nəticədə bir irəliləyiş oldu: ilk dəfə olaraq ifrat sağçılar və ifrat solçular texnokratların hökumətinə qarşı həmrəylik səs verdilər. Makronun Le Penə qarşı iki dəfə prezidentliyə namizəd olmasına imkan verən "respublika cəbhəsi" əvəzinə, millətin sosial demokratiya iradəsinə məhəl qoymamağa qarşı "anti-makronçu cəbhə" yarandı. Bu, bütün siyasi mənzərənin dəyişdirilməsi istiqamətində bir addımdır, hətta prezidentyönlü deputatlar da de Kursonun təklifinə səs verdilər.

İnsanları küçələrə çıxaranlar da yeni kompromislər axtarırlar. Bu mənada ölkənin aparıcı həmkarlar ittifaqı olan Fransa Demokratik Əmək Konfederasiyasının rəhbəri Loran Bergerin mövqeyi son dərəcə əhəmiyyətlidir. Məhz o, 2022-ci ilin payızında prezidentdən sosial dialoq tələb edən Sen-Nazerdən olan liman işçisinin oğlu idi, israr edirdi ki, pensiya qanununun mətni həssas işçi kateqoriyaları ilə bənd-bənd əlaqələndirilməlidir. Yalnız bundan sonra deputatların müzakirəsinə verilməlidir. "Siyasi kompromislər sosial kompromisləri əvəz etməyəcək" - onun mövqeyi pensiyalar haqqında qanun üçün əsas ola bilər.

Berger "sosial qəzəb atəşini söndürmək" üçün hakimiyyəti yavaşlamağa, qanunu gətirməyə və onu tətbiq etməməyə inandırır. "Hörmətlə rəftar hissi qəzəblə əvəz olundu, çünki birliklərin konkret təkliflərlə dinc etirazlarına məhəl qoyulmur" deyir. Bu, Fransa Demokratik Əmək Konfederasiyası rəhbərinin xəbərdarlıq etdiyi kimi, siyasi məqsədlər üçün "istifadə etməyə" çalışacaq vəhşi etirazlara yol verə bilər. Makron televiziyaya verdiyi müsahibədə həmkarlar ittifaqlarından heç bir təklifin olmadığı barədə açıqlamasını yalan və münaqişənin tarixini yenidən yazmaq cəhdi adlandırıb.

## Son çarə demokratiya

Fransa prezidenti ilə küçə arasında ikinci qarşıdurma kulminasiya nöqtəsinə çatmayıb, lakin hər an partlaya bilər. Fransız cəmiyyətinə nüfuz edən çoxlu narazılıqlar bu islahatı qəbul etdi. Üstəlik indiki inflyasiya dünən özünü orta təbəqə hesab edənləri də sıradan çıxarır. Və təbii ki, hakimiyyətin hansı təbəqələri, hansı qüvvə ilə vuracağını hesablamadan hamını kütləvi şəkildə yeni islahata sövq etməyə cəhd edir.

General de Qoll tərəfindən 60 il əvvəl əsası qoyulan Beşinci Respublika sistemi ilk uğursuzluqlarla baş-başadır, amma hələlik tab gətirir, lakin səhvlər üzərində işləmədən sağ qalmaya da bilər. Bəli, Fransa prezident respublikasıdır, amma parlamentsiz hələ də işləyə bilmir. Makronun hakimiyyəti altında sistemə çevrilən tıxacdan çıxmaq üçün yuxarıdan güzəştlər, küçədən özünə nəzarət, qurumların qarşılıqlı fəaliyyəti üçün yeni formatlar lazımdır. Və hökumətin qalan dörd ili bunun son nəticədə hansı yeni respublika ilə nəticələnəcəyini göstərəcək. Lakin vektor belədir: ölkəni korporativ qanunlara uyğun idarə etmək cəhdləri nə qədər enerjili olsa, müqavimət bir o qədər sərt olacaq - döyüşsüz fransızlar ən təcili islahatların belə mərhəmətinə təslim olmayacaqlar.

**V.VƏLİYEV**

# “Siyasətdə dialoq mühiti demokratik dəyərlərin göstəricisidir”



Siyasi sistemin təkmilləşdirilməsi, sağlam dialoq mühitinin siyasi dəyər kimi təşviq edilməsi bütün dövrlər üçün aktuallığını qoruyur. Dövlət başçısı İlham Əliyevin bu istiqamətdə təşəbbüsləri və atdığı addımlar ölkə ictimaiyyəti tərəfindən rəğbətlə qarşılanır. Hər bir demokratik cəmiyyətdə müxalifətin olması vacib amildir. Təbii ki, burada söhbət sağlam düşüncəli, hadisələrə real yanaşan, konstruktiv müxalifətdən gedir. Əfsuslar olsun ki, müxalifətçiliyi bu gün də dövlətə, dövlətçiliyə qarşı dayanmaq kimi dəyərləndirən siyasi ünsürlər də mövcuddur. Belələri şəxsi ambisiyaları naminə xarici anti-Azərbaycan dairələrin əlində oyuncaq rolunu oynamaqda davam edirlər. Konstruktiv müxalifətə gəldikdə isə, dövlət başçısı İlham Əliyevin qeyd etdiyi kimi, müxalifət nümayəndələri bəzən iqtidar nümayəndələrinin görmədiyi qüsurları görür, onları dilə gətirir, onları diqqətə çatdırır və bu, çox müsbət haldır. Ölkə Prezidenti bu fikirlərinin ardınca belə bir çağırışı da səsləndirir ki, bütün siyasi qüvvələr üçün bir amal, bir məsələ toxunulmaz olmalıdır. Bu da müstəqilliyimiz, dövlətçiliyimiz və dövlət maraqlarıdır. Müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, ulu öndər Heydər Əliyev bildirirdi ki, nə qədər partiya olur olsun, onların hamısı bir məqsədə - Azərbaycanın müstəqilliyini qorumaq, torpaqlarımızı düşməndən azad etmək işinə xidmət etməlidir. Göründüyü kimi, siyasi dialoq mühitinin formalaşdırılması, partiyalar arasında qarşılıqlı anlaşma mühitinin yaradılması hər zaman günümüzün əsas məsələlərindən olub. Bu fikirləri Yeni Azərbaycan Partiyası (YAP) Xətai rayon təşkilatının sədri, siyasi elmlər doktoru Vüqar Rəhimzadə açıqlamasında bildirib.

Vüqar Rəhimzadə diqqəti 2021-ci ildə Yeni Azərbaycan Partiyasının tarixi Zəfərimizin reallıqları əsasında keçirilən VII qurultayında dövlət başçısı İlham Əliyevin səsləndirdiyi bu çağırışlara da yönəldib: ”Biz yeni dövrdə siyasi dialoqu daha da dərinləşdirməliyik. Belə qərara gəldik, belə təklif edik ki, ümummilli məsələlərdə heç bir fərqli fikir ola bilməz. Ümumi məsələlər Qarabağ məsələsidir. Ümumi məsələlər siyasi partiyaların fəaliyyətidir, demokratiyanın inkişafıdır, iqtisadi azadlıqların bərqərar olmasıdır, ölkəmizin güclənməsidir. Bu gün bu siyasi dialoq aparılır. Mən bunu çox təqdir edirəm. Hesab edirəm ki, ölkəmizin gələcək siyasi sisteminin təkmilləşməsi üçün bunun böyük əhəmiyyəti var.” Sözügedən qurultayda 6 siyasi partiyanın Yeni Azərbaycan Partiyasına qoşulmaq barədə qərarı sağlam dialoq mühitinin, həmçinin siyasi partiyaların problemlərə vahid mövqedən yanaşmaq, Azərbaycanın daha uğurlu gələcəyi naminə birgə addımlamaq istəyini ortaya qoydu. Bu məqamı xüsusi qeyd etməliyik ki, 50-dən artıq siyasi partiya bu istəyini hələ 44 günlük İkinci Qarabağ müharibəsi dövründə dövlət başçısı İlham Əliyevin siyasətinə dəstəklərini birgə bəyanatın imzalanması ilə ifadə etmişdilər.

YAP Xətai rayon təşkilatının sədri vurğulayıb ki, son iki il Azərbaycanda dayanıqlı dialoq ənənələrinin formalaşdırılması siyasətinin ilk mərhələsi kimi dəyərləndirilir. ”Siyasi dialoq” məfhumunun aktuallaşdırılması, siyasi münasibətlərin iştirakçıları arasında dialoq ilə bağlı olan lazımi vərdiş və səriştələrin inkişaf etdirilməsi, siyasi münasibətlərdə köhnə stereotiplərin dəyişdirilməsi, qərəzli mövqelərdən çıxış edən tərəflərin səhvləri etiraf etmələri və siyasi fəaliyyətlərini yeni təmiz səhifədən başlamaq istəkləri, ümumilikdə siyasi sistemin sağlamlaşdırılması dövrü kimi təhlil edilən bu mərhələdə görülən işlər, atılan addımlar qənaətbəxşdir. Son iki il, eyni zamanda, siyasətdə xalqın və xarici qüvvələrin dostlarını bir-birindən ayırd etmək mərhələsi kimi də xarakterizə edilə bilər. Şəxsi ambisiyalarını dövlət maraqlarından üstün tutaraq xarici dairələrin diktəsi əsasında oturub-duran siyasi ünsürlərdən ölkəmizin xeyrinə hansısa addımı gözləmək sadəlövhlük olardı.

Onların məqsədi ölkəmizin nailiyyətlərinə, hakimiyyətin uğurlu siyasətinə kölgə salmaq, Azərbaycanın imicinə zərbə vurmaqdır. Tarixi Zəfərimizin bu ünsürlər tərəfindən necə qısqanclıqla qarşılandığı bu gün də səsləndirdikləri fikirlərdən, iqtidarın dialoqla bağlı açıq mesajlarını özlərinə sərf edən şəkildə təhlil etmələrindən aydın görünür. Şanlı Qələbəmizdən sonra Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyevin siyasi partiyalarla silsilə xarakter daşıyan görüşlərinə hansı partiyaların qatılmadıqları da diqqətdən kənarda qalmır. Siyasi dialoqla bağlı olan təşəbbüsləri inkar edən və bu proseslərdə iştirak etməkdən boyun qaçıran qüvvələr bu kimi destruktiv addımları ilə öz radikal və xain mövqelərini nümayiş etdirmiş olurlar.

Vüqar Rəhimzadə diqqəti açıq və demokratik rəqabətə çağırış kimi dəyərləndirilən ”Siyasi partiyalar haqqında” yeni Qanunun perspektivlərinə, siyasi dialoq mühitinin möhkəmləndirilməsində onun roluna yönəldərək bildirib ki, bu sənəd siyasi proseslərdə iştirak edən tərəflərin güclərinin balansına xidmət edir. Belə ki, Qanunun tələblərinə cavab verən partiyalar rəqabətə dözümlü olduqlarını sübut edirlər. Ölkənin siyasi tarixində ilk dəfədir ki, yeni Qanunun hazırlanması prosesinə siyasi münasibətlərin bütün iştirakçı tərəfləri cəlb olunmuşdur. Qanuna dair təkliflərin təqdim olunması ilə bağlı iqtidarın açıq müraciətləri hakimiyyətin siyasətdə bilavasitə demokratiya prinsiplərinə sadiqliyinin təzahürüdür. Şübhəsiz, atılan hər bir addım siyasi partiyalar arasında sağlam rəqabət mühitinin güclənməsinə xidmət edir.

TƏHLİL / VİDEO

## Hərbi təxribat, siyasi sabotaj: ermənisayağı ”sülh resepti”

10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanata zidd olaraq öz silahlı qüvvələrini hələ də Azərbaycan ərazilərindən tam çıxarmayan Ermənistan son dövrlər təxribatları və təcavüzkar ritorikanı şiddətləndirib. Bu ölkənin yeni hərbi-siyasi provokasiyaları sülh prosesinə mane olmaq istəyən qüvvələrin fəallaşması fonunda xüsusi diqqət çəkir. Belə ki, Fransanın, İranın, o cümlədən




Avropa Parlamentində müəyyən siyasi qruplaşmaların Ermənistanı açıq mesajlarla dəstəkləməsi yeni qarşıdurmaya rəvac verir.

Digər tərəfdən, Rusiya sülhməramlılarının öz öhdəliklərini yerinə yetirməməsi - Qarabağdakı erməni separatçılarına dəstək verməsi gərginlik yaradır, eskalasiyaya təkan olur. Aydındır ki, Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki Ermənistan silahlı qüvvələri üçün canlı qüvvə, silah-sursat, mina, eləcə də digər hərbi təyinatlı vasitələrin daşınmasının intensivləşməsi, Xankəndi-Xəlfəli-Turşsu yolundan şimalda yeni yolun çəkilməyə başlanması kimi müxtəlif təxribatçı addımlar məhz sülhməramlıların gözü qarşısında baş verir. Bununla yanaşı, martın əvvəlində Xankəndi-Xəlfəli-Turşsu yolunda, martın 20-də isə Zəngilan rayonu istiqamətində Ermənistanın törətdiyi təxribatlar nəticəsində Azərbaycan hərbçilərinin şəhid olması və yaralanması faktları Ermənistanın məqsədyönlü şəkildə sülhyaratma prosesini əngəlləməyə çalışdığını göstərir.

Bəs məramının barış olduğu söylənilən sülhməramlı kontingentin öz məsuliyyət zonasında qeyri-qanuni fəaliyyətə göz yumması, yaxud zəmin yaratması nəyin göstəricisidir?

Digər tərəfdən, Ermənistan tərəfinin son təxribatları Azərbaycanın suveren ərazilərində illeqal halların qarşısının alınması məqsədilə Laçın yolunun son nöqtəsində Azərbaycanla Ermənistan arasında sərhəd-keçid və nəzarət məntəqəsinin yaradılmasını labüd edir. Çünki Azərbaycan öz ərazisində baş verən bu kimi qanunsuzluqlara, beynəlxalq hüquqa zidd hərəkətlərə göz yummaq niyyətində deyil. Nəhayət, Ermənistanın sülh prosesini hədəfə alan təxribatçı əməlləri Azərbaycanın antiterror əməliyyatına başlamasını da zəruriləşdirir. Bunun üçün Azərbaycanın kifayət qədər gücü və potensialı mövcuddur!

# “Müharibə ilə bağlı hazırkı hesab Rusiyanı qane edir”



“Rusiya-Ukrayna müharibəsi artıq bir ildən çoxdur ki, davam edir. Bu müddət ərzində Rusiya öz maraqlarına uyğun olan formada hərəkət edib, Ukrayna burada Qərbin təsiri altında qalıb. Düzdür, mətbuatda belə bir fikir irəli sürülür ki, Ukraynanı dəstəkləyən qüvvələr çoxdur. Lakin müharibə Ukrayna ərazisində gedir, belə olan halda hansı dəstəkdən danışıldığını bilmirəm. Çünki dağılan ərazi də, öldürülən insanlar da Ukraynaya aiddir”. Bu sözləri SİA-ya açıqlamasında politoloq Cümşüd Nuriyev bildirib.

Onun sözlərinə görə, siyasi məqsədə çatmaq üçün zaman-zaman üçüncü dövlətdən yararlanırlar: ”Təəssüf ki, Ukraynaya verilən sözü nə Avropa İttifaqı, nə də ABŞ tutdu. Özlərinin köhnə texnikasını Ukraynaya verməklə daha çox qazanc əldə etdilər. Görünən odur ki, burada Rusiya ilə ABŞ arasında Ukrayna qurban getdi.

Rusiya köhnə müharibə taktikasından istifadə edir. Hələlik Rusiya müharibəni dayandırmayacaq. Yaxın bir neçə ay ərazində də bu prosesin baş tutacağını gözləmirəm. Çünki Rusiyanın əsas məqsədi Dneprə qədər çıxmaqdır. Dneprin sol sahilini ələ keçirənə qədər müharibə davam edəcək. Əslində diqqətlə izləsək, Rusiya bu bir il ərzində qarşıya qoyduğu plana tam şəkildə çatıb. Rusiyanın nə vaxtsa çökəcəyini gözləmək bir qədər inandırıcı deyil. Dünya resurslarının 21 faizi Rusiya ərazisindədir. Müharibə ilə bağlı hazırkı hesab Rusiyanı qane edir. Ukraynanın qələbə çalma ehtimalı isə inandırıcı görünmür”.

*Səbinə Hüseynli*

ŞƏRH + AKTUAL

# Kommersant: "Bakı "KPP"-nin qoyulması üçün bütün imkanlarını işə salıb"






Qarabağda baş verən son hadisələr Rusiya mediasının da diqqətində saxlanılmaqdadır. Xüsusilə, Moskvanın Azərbaycan-Ermənistan münasibətlərinin nizamlanması istiqamətində vasitəçilik missiyasını üzərinə götürməsi və 2,5 ilə yaxındır ki, Rusiya sülhməramlılarının kontingentinin (RSK) Qarabağdakı müvəqqəti fəaliyyəti də Rusiya KİV-lərinin tez-tez toxunduğu mövzulardandır. Lakin daha bir fakt da budur ki, RSK-nın fəaliyyətində separatçıların və qanunsuz erməni silahlılarının səmərələrinə yönəlik neqativ halların mütəmadi olaraq yaşanması bir sıra məsələlərdə rəsmi Bakının haqlı iradları və qətiyyətli tələbləri ilə nəticəsini tapmaqdadır. Əsasən, Xankəndi-Xəlfəli-Turşsu torpaq yolundan silah-sursatların daşınması faktının qarşısının alınması və artıq Azərbaycan Ordusunun bu ərazini nəzarətə götürməsi regiondakı gərginliyin göstərici kimi qiymətləndirilə bilər və bu gərginlik bilavasitə Ermənistanın cəhdləri ilə yaranmaqdadır. Bu və bu kimi digər bənzər məsələlərə növbəti dəfə Rusiyanın nüfuzlu "Kommersant" qəzeti yanaşma edib. Düzdür, bir sıra ifadələrin, yer adlarının işlədilməsində, eləcə də siyasi yanaşmada erməni mövqeyinə daha çox yaxınlıq hiss edilsə də, bütövlükdə Bakının verdiyi qərarlar Moskvanı düşünməyə vadar etməkdədir...

### "Ermənilər bu yoldan fəal şəkildə istifadə etməyə başladıqda azərbaycanlılar orada blokpost yerləşdirdilər"

Qəzet yazır ki, Qarabağda Laçın yolu ilə bağlı yeni böhran yaranıb - daha dəqiqi, torpaq yol üzərindəki bu yol ekoaksiyanın keçirildiyi əraziyə alternativdir. SİTAT: "Formal olaraq bu ərazi Rusiya sülhməramlılarının nəzarəti altındakı bölgədir. Lakin ermənilər bu yoldan fəal şəkildə istifadə etməyə başladıqda, azərbaycanlılar orada blokpost yerləşdirdilər. Artıq Azərbaycan hakimiyyəti regiona daxil olan yerdə "KPP"-nin (nəzarət-buraxılış məntəqəsi-R.R.) qoyulması vacibliyi barədə danışır".

"Kommersant" RSK-nın fəaliyyətini əks etdirən bülletenə istinad edərək yazır ki, Azərbaycan hərbçiləri Xəlfəli-Turşsu yolu üzərindəki postda mühəndis-istehkam işlərinə başlayıblar.

### "Bakıda vurğulandı ki, erməni hərbçilərini məhz RSK müşayiət edirdi"





Qəzet, bu xüsusda Azərbaycan XİN-nin tələb xarakterli qətiyyətli bəyanatını da dərc edib və yazıb ki, Azərbaycan postunun yerləşdiyi sözügedən marşrutun adı bu yaxınlara qədər KİV-lərdə və rəsmi bəyanatlarda hallandırılmırdı. Çünki praktiki olaraq istifadə edilmirdi. Bu torpaq yol həyat və yaşayışı olmayan dağ kəndlərindən keçir və lazımsız idi. Hansı ki, həmin ərəfələrdə Xankəndiyə keyfiyyəti asfalt döşənmiş Laçın yolu ilə gedilirdi. SİTAT: "Azərbaycanlı ekofəallar bu yolda aksiya keçirməyə başlayandan sonra alternativ marşrutun istifadəsi zərurəti artmağa başladı. Lakin həmin yol yaza yaxın vaxtlardan, qar əridikdən sonra istifadə edilməyə başlandı. Azərbaycanlılar bunu praktiki olaraq dərhal gördülər və artıq martın 5-də silahlı insident yaşandı: Azərbaycan Ordusu tanınmayan "DQR"in "DİN"nə məxsus UAZ-ı atəşə tutdular. Bundan sonra isə Bakıda vurğulandı ki, erməni hərbçilərini məhz RSK müşayiət edirdi. Ermənilər isə oraya texnika yığaraq yolu hamarlamağa çalışdılar ki, yalnız iri avtomobillər deyil, kiçik maşınlar da bu yoldan istifadə edə bilsinlər. Bakı özünün növbəti hədəflərini gizlətmir - orada əmindirlər ki, artıq bütün nəzarəti öz əllərinə götürmək lazımdır".

"Kommersant" Azərbaycan XİN-nin martın 25-də yaydığı bəyanatını da xatırladaraq Laçın yolunun son məntəqəsində Azərbaycan-Ermənistan sərhədində "KPP"-nin qoyulması istiqamətində işlərin aparıldığını qeyd edib.

### Politoloq İlqar Vəlizadə "Kommersanta" deyib: "Biz bu ziddiyyətləri arqumentlərlə əsaslandırırıq ki, növbəti beş ildə onların (RSK-nın) burada qalmasına zərərət yoxdur"

Qəzet, azərbaycanlı politoloq İlqar Vəlizadənin də fikrini alıb. Politoloq bildirib ki, bundan sonra Azərbaycan hakimiyyətinin RSK-ya etibarı çətin ki, bərpa olunsun. SİTAT: "Belə demək mümkündürsə, bizdə aritet var: sülhməramlılar bizim narahatlığımızı inkar edirlər. Amma biz bu ziddiyyətləri arqumentlərlə əsaslandırırıq ki, növbəti beş ildə onların (RSK-nın) burada qalmasına zərurət yoxdur. Lakin bu, Rusiya ilə münasibətlərə təsir etməyəcək. Bunu yalnız missiyanın effektsizliyi ilə əlaqələndirmək olar".



"Kommersant" mövzu ilə bağlı erməni politoloqu Aleksandr İskandaryanın da mövqeyini öyrənib. Onun sözlərinə görə, RSK-nın Qarabağdakı fəaliyyəti cüzi olacaq, o da ən uzağı erməni tərəfi üçün. Onun sərsəm iddialarına görə, əgər RSK regionu tərk etsə, Qarabağdakı erməni əhalisi "etnik təmizlənməyə" məruz qalacaqlar və s.

### Erməni politoloqu Aleksandr İskandaryan: "İrəvan əvvəlki kimi Moskvadan Laçın yolunun "blokadadan" çıxarılmasını gözləyir, lakin bu ssenari indi realistik görünmür"

Lakin maraqlıdır ki, Rusiya nəşri Azərbaycan Prezidenti İlham Əliyevin dəfələrlə səsləndirdiyi bəyanatını xatırlatmayıb və yazmayıb ki, Qarabağda yaşayan ermənilər Azərbaycan vətəndaşlarıdırlar və onların reinteqrasiyası üçün lazım olan bütün zəruri addımlar atılacaq. Bunun yerinə isə erməni politoloqunun gülünc iddiasını yazır və üstəlik, daha bir fikrini də qeyd edir. "İrəvan əvvəlki kimi Moskvadan Laçın yolunun "blokadadan" çıxarılmasını gözləyir, lakin bu ssenari indi realistik görünmür", deyə İskandaryan deyib.

Göründüyü kimi, Rusiya nəşri bu məsələdə ermənilərə yönəlik xarakterli çıxış edib. Halbuki, Ermənistanda anti-Rusiya meyilləri də artmağa davam edir. Moskva öz mövqeyini saxlamaq üçün dəridən-qabıqdan çıxır, hətta rəsmi İrəvanın anti-Rusiya fəaliyyətinə də göz yumur. Bu baxımdan, rəsmi Bakı artıq öz verdiyi qərarlarını icra etməkdədir və bu yoldan heç bir halda geri çəkilməyəcək.

*Rövşən RƏSULOV*

# "Ermənistanla Azərbaycan arasında toqquşma olacaq"



Keçən həftə, martın 24-də Ermənistan Konstitusiya Məhkəməsi Beynəlxalq Cinayət Məhkəməsinin (BCM) Roma Statutunu respublika Konstitusiyasına uyğun olaraq tanıyıb. Əslində, ölkə bu beynəlxalq aktı hələ 1998-ci ildə imzalasa da, 2004-cü ildə ölkənin ali məhkəmə orqanı məhz bu Əsasnaməni o vaxt qüvvədə olan Əsas Qanuna zidd hesab edib və onun ratifikasiyası təxirə salınıb.

Uzun müddət İrəvan bu məsələyə qayıtmadı, lakin bir neçə gün əvvəl Konstitusiya Məhkəməsi Roma Statutuna qoşulmağı təsdiqlədi. Bu o deməkdir ki, indi Ermənistan respublikada araşdırma və həbslər apara bilən Haaqa Tribunalının yurisdiksiyasındadır. Hər şey yaxşı olardı, amma fakt odur ki, martın 17-də BCM-nin məhkəməyə qədərki palatası Rusiya prezidenti Vladimir Putinin həbsinə order verib və indi hüquqi suallar ortaya çıxır- İrəvanın bu qərarı Rusiya prezidentinin həbsinə BCM tərəfindən order verilməsilə bağlıdır və Moskva buna necə reaksiya verəcək?

Bu və digər suallarla bağlı Siyasi Araşdırmalar İnstitutunun direktoru, rusiyalı politoloq Sergey Markov "Caliber" analitik mərkəzinə fikirlərini bildirib. Politoloqun şərhini oxucularımıza təqdim edirik.

S.Markovun ilk növbədə qeyd etdiyi kimi, Haaqa Məhkəməsinin Rusiya Prezidenti Vladimir Putinin həbsinə sanksiya verməsindən cəmi bir neçə gün sonra Ermənistan Konstitusiya Məhkəməsinin Roma Statusunun Respublika Konstitusiyasına uyğunluğu barədə qərarı qəbul edilib. Moskvada bu, son dərəcə mənfi qarşılanıb.

"Hətta deyərdim ki, Rusiya cəmiyyəti Ermənistanın bu addımını xəyanət kimi qəbul edir. Eyni zamanda, çox güclü erməni diasporunun təsiri altında olan bir çox Rusiya mediası bu fakta susmağa çalışır. Baxmayaraq ki, bu, hətta diaspor deyil, həm erməniləri, həm də rusları özündə birləşdirən sistemdir və yəqin ki, ən güclü etnik qrupdur. Yəhudilərin əksəriyyəti Rusiyanı tərk etdikdən sonra ermənilər Rusiya mediasında, maliyyə qurumlarında və nəhayət, siyasətdə ən güclü etnik icmadır. Və bu erməni sistemi hər şeyi edəcək ki, Rusiya buna heç bir şəkildə reaksiya verməsin və ən yaxşısı Rusiya vətəndaşlarının əksəriyyətinin bundan ümumiyyətlə xəbəri olmasın. Buna baxmayaraq, hakimiyyətin bundan xəbəri var və orada qəzəblənirlər. Nə vaxtsa Ermənistan rəhbərliyinin şıltaqlığı Rusiya rəhbərliyinin səbrini alt-üst edə bilər",- rusiyalı politoloq hesab edir.

Ümumiyyətlə, S.Markovun fikrincə, Ermənistan Roma Statutunu Azərbaycana qarşı istifadə etmək üçün tanıyıb.

"Çətin ki, İrəvan Azərbaycanla danışıqlarda iqtisadi üstünlüklər barədə sövdələşmək istəməsin. İrəvan Laçın yolundakı vəziyyətlə bağlı Ermənistan tərəfinin az qala Qarabağın erməni əhalisinin "soyqırımına" hazırlıq kimi yozmağa çalışdığı vəziyyətlə bağlı ən qısa zamanda Azərbaycana qarşı BCM-yə şikayət vermək istəyir. Qeyd etmək lazımdır ki, erməni sisteminin nümayəndələri təkcə Rusiyada deyil, ABŞ-da, Aİ-də, xüsusən də Fransada nüfuz sahibidirlər. İndi erməni lobbisi BCM-də müttəfiqlər tapmağa ümid edir.

Bundan başqa, Paşinyan Rusiyaya daim təzyiq göstərir, ondan daha çox ermənipərəst mövqe tutmasını tələb edir, əks halda Ermənistanın Qərbə gedəcəyi ilə hədələyir. Və bu Qərbə istiqamətlənmə siyasəti kifayət qədər uzun müddətdir ki, davam edir. Ermənistan hakimiyyəti uzun müddətdir ki, bu istiqamətdə işləyir. Bunlara Paşinyanın qərbyönlü siyasətçiləri dövlət vəzifələrinə təyin etməsi, ölkəyə Aİ-nin müşahidəçi missiyasının dəvəti, həmçinin baş nazirin KTMT ilə bağlı müxtəlif neqativ hərəkətləri daxildir",- həmsöhbətimiz vurğulayıb.

Qarabağ hadisələrinə gəlincə, S.Markovun hesab etdiyi kimi, orada vəziyyət həqiqətən də kəskindir.

"Bu, azərbaycanlı ekoloqların Laçın yolunda dinc aksiyası ilə bağlıdır. İndi də Azərbaycan ordusu Laçın yolunun şimalındakı torpaq yolu nəzarətə götürüb. Beləliklə, Ermənistanın Qarabağdakı RMK-nın müvəqqəti məsuliyyət zonasına hərbi texnika ötürmək və şəxsi heyətin rotasiyasını həyata keçirmək üçün bütün imkanlarını itirdiyi məlum olur. Beləliklə, indi gərginlik arta bilər.

Lakin ümumilikdə bu, Ermənistanın öz hərbi hissələrini Qarabağdan çıxarmaması və sülhməramlı kontingentin yerləşdiyi və erməni əhalisinin yerləşdiyi Qarabağın qalan hissəsinə nəzarətin ona verilməsinə hazırlaşmaq üçün konkret addımlar atmaması ilə bağlıdır. Bu istiqamətdə heç bir tədbir görülmür. Ona görə də güman etmək olar ki, 2025-ci ilə qədər Ermənistanla Azərbaycan arasında müəyyən toqquşmalar olacaq, çünki regionda hərbi qarşıdurma hələ də davam edir", - deyə S.Markov yekunlaşdırıb.

*Tərcümə - Elçin Bayramlı*

Rəy

# “Biz olmalı olduğumuz yerlərdəyik”

## Demokratik Maarifçilik Partiyasının sədri, millət vəkili Elşən Musayevin "Səs" qəzetinə müsahibəsi

***- Elşən müəllim, Azərbaycan ordusunun keçirdiyi son əməliyyatla Xankəndi ətarfındakı mühüm yüksəkliklərə nəzarət etməsi, sonrakı proseslərdə davam etdirilməsi nə dərəcədə gözlənilləndir?***

- Xankəndi ətrafındakı yüksəkliklərə nəzarət Azərbaycanın haqqıdır və öz haqqımıza da qovuşmuşuq, üstəlik, qansız-qadasız. Yəni, biz olmalı olduğumuz yerlərdəyik və bütün gedişatlarda da beynəlxalq hüquq Azərbaycanın tərəfindədir. Çünki həmin torpaqlar dövlətimizin suveren əraziləridir. Təbii ki, gələcəkdə də möhkəmlənməmiz davam edəcək. Sadəcə, format hələ məlum deyil. Bu, güc resursları ilə də, sakit, sülh formatında da ola bilər. Əsas odur ki, bütün mərhələlərdə qalib bizik, diktə edən bizik və Ermənistan əvvəl-axır məlum reallıqla barışmalı olacaq.



***- Rusiya müdafiə nazirliyi növbəti dəfə Azərbaycanın keçirdiyi son əməliyyata özünəməxsus şəkildə rəy verməyə çalışdı. Rusiyanın yenə də 10 noyabr razılaşmasından kənara çıxması nəyə hesablanıb?***

- Açığı həmin rəy abstrakt idi və yəqin ki, Rusiya tərəfinin özü də verdiyi rəydən konkret bir şey anlamayıb. Daha dəqiq desəm, bu rəy tələm-tələsik, qatmaqarışıq şəkildə verilmişdi. Ona görə də, əks-sədası olmadı, xüsusi diqqət cəlb etmədi. Amma təbii, sizin də söylədiyiniz kimi, 10 noyabr razılaşmasına mütləq şəkildə əməl olunmalıdır. Üstəlik, bir tək razılaşmaya deyil, həm də bayaq adını çəkdiyim beynəlxalq hüququn norma və tələblərinə. Eyni zamanda, qonşuluq siyasətində gözlənilməsi son dərəcə vacib olan etiket qaydalarına.

***- Fransanın xarici işlər naziri Ketrin Kolonna Azərbaycana səfərə gəlir. Fransa od içində olduğu bir məqamda bu məmurun Bakıya gəlməsi nə ilə bağlı ola bilər?***

- Ketrin Kolonnanın ölkəmizə hansı məqsəd və məramla gəlməsi haqda nəsə deyə bilmərəm. Çünki təfsilatlar haqda məlumatlı deyiləm. Hər halda ümid edək ki, səfər xoşməramlıdır və bölgədəki proseslərin adekvat dəyərləndirilməsi məqsədini daşıyır. Eyni zamanda, bir məqamı xüsusi qeyd edim: Azərbaycan heç vaxt heç bir dövlətlə düşmənçilik siyasəti aparmayıb, Azərbaycan hər zaman sülhün və normal münasibətlərin tərəfdarı kimi çıxış edib. Kimsə ilə də aramız dəyibsə, bu, bizim yox, qarşımızdakının günahı ucbatından olub. Ona görə də, düşünürəm ki, Fransa öz xarici siyasətində dəyişiklik etməli, erməniyə dəstək verməkdən çəkinməli və həqiqətin yanında olmalıdır.

***GÜLYANƏ***

# KÜNCDƏN ZƏRBƏ!

## *AFFA-nın "yuyulan" milyonları və qapımıza vurulan 9 qolll!!!*

**Yenə rəzil olduq milli komanda olaraq bütün dünyada. Əvvəlcə Avstriyada, indi də İsveçrədə. İki qarşılaşmada düz 9 qol buraxdıq qapımızdan. Özü də birini özümüz öz qapımıza ”siftə” elədik. Belə ”siftələrdə” bizə çatan olmaz. Nə antirekord var bizim alnımıza yazılıb inan. Açıq yazıram: Dövlət olaraq, ölkə olaraq qazandığımız tarixi qələbələrimizi AFFA puç edir və futbol millimizin timsalında yerə vurmaqla məşğuldur. Bu milli komandamız qələbələrimizi artıq dünya mediasında da əleyhimizə çevrilməkdədir. Hər qarşılaşmadan sonra Azərbaycan millisinin ”qapazaltı” komanda imici ilə xəbər lentlərində sıralanması ən böyük informasiya zərbəsidir. İnformasiya müharibəsində AFFA bizim əsl başağrımıza çevrilib. Yalan yazıram? - qətiyyən!**

Futbol millimiz artıq neçə onilliklərdir ki, bizim milli reputasiyamızı aşağılamaqla məşğuldur. Bu milli komandaya dünyada məşqçi qalmadı gətirməsinlər. Braziliyadan başlamış Almaniyadan, Afrika yarımadasından küçədə kimi tuturlarsa məşqçi, futbolçu adı ilə Bakıya gətirirlər. İnanın bütün dünya mediasında Azərbaycan millisi artıq lağlağı hədəfinə çevrilib. Dəxli oldu-olmadı, məşqçi, futbolçu adı ilə yüz kilometr uzaqdan əlaqəsi olmayanlar belə Azərbaycan millisinə çağırılır. Sanki milli komandamız əcnəbi zibilliyi üçün baza rolunu oynayır. Yalanmı deyirəm? - qəti!

Ölkə rəhbərliyi idmanın inkişafı üçün heç bir ölkədə rast gəlinməyən qədər geniş imkanlar açıb. Amma əvəzində futbolumuzu idarə edənlər bu idman sahəsini rəzalət günə qoymaqdan çəkinmədilər on illərdir. Azərbaycanda gələcək futbolçu bazası yaratmaq, istedadlı uşaqların axtarılıb tapılması, bölgələrdə futbola marağı yüksəltmək üçün milyonlarla manat vəsaitlər xərcləndi, futbol meydançaları salındı, büdcədən milyonlar xərcləndi. Nəticə? - HEÇ NƏ! Azərbaycanda dağın başında qoyunquzu otaran körpə çoban da bilir ki, əcnəbi ”məşqçiləri” Bakıya gətirmək ən əvvəl ”yuyulan” milyonlar deməkdir. 2004-cü ildən Karlos Alberto Torreslə başlayan ilk əcnəbi məşqçi təyinatı bu gün italyan Cianni De Byazi ilə davam edir. Bu neçə əcnəbi ilə bağlanan qaranlıq müqavilələr və ”yuyulan” milyonlar sonda iki qarşılaşmada qapımıza vurulan 9 qol ilə sonunclandı...

Adamdan soruşarlar bu boyda ölkədə milli komandanı idarə etmək üçün məşqçi tapılmadımı ki, gedib ancaq əcnəbilərə ”elçi” düşürsünüz? Nədən bu italyanlara, braziliyalılara nə bilim kimlərə-kimlərə göstərdiyiniz ”səbri” öz məşqçilərimizə göstərmirsiniz? 0:5 uduzmaqdırsa, onda elə özümüzünkü ilə uduzaq da. İtalyanla uduzanda, özümüz öz qapımıza qol vuranda bəyəm ayrı ləzzətli olur



ki? Nədən Qurban Qurbanova bu səbri göstərmədiniz, nədən imkan vermədiniz milli komandanı formalaşdırsın, klublarda işləsin, oyun sistemi qurulsun?

Tərlan Əhmədov, Əsgər Abdullayev, Qurban Qurbanov, eləcə də yeni yetişən gənc məşqçilərimiz. Bunları qoyub Braziliyanın, İtaliyanın, bir azdan Afrika ölkələrinin küçələrində məşqçi axtarmağa nə məcburiyyət var? Bir yaxın dostumuz var, Braziliyaya səfərlər edib dəfələrlə. Adam ciddi-ciddi deyir ki, orada küçədə ”top qovanları” Bakıya daşıyırlar. Yəni bura gətirilənlər orada küçədə ayaqyalın ”futbol oynayanlardır”. Acıdır bu faktlar, amma reallıqdır...

Milli komanda həm də klublarımızın hazırkı acınacaqlı futbolçu heyətinin PASPORTUDUR! On illərdir milli komandaya ”tapşırıqla”, telefon zəngləri ilə futbolçu seçimi olur. Özü də bu barədə məlumatlar hər zaman mətbuatda eninə-boyuna işıqlandırılır. Boş yerdən olmur belə çoxlu xəbərlər. Hər şeyin mütləq ki, bir səbəbi var. Beləcə, on illiklərdir ki, futbolun inkişafı üçün ayrılan milyon-milyon pullar Bakı küləyində uçub gedib işinin dalınca. Yerdə qalan NƏTİCƏ isə, bu gün qapımıza vurulan 9 QOLDUR!

PS. Bu biabırçılıqdan hər kəs cana doyub, bəlkə AFFA rəhbərliyi də dedi-qodunu, qohumbazlığı, intriqaları, qisasçılıq hissini kənara qoyub həqiqi futbolla məşğul olsun...

***V.Əliyev***



**MƏTANƏT**

# O vəsait hara getdi?..

**Maraqlıdır, həm də çox maraqlıdır ki, biz nə üçün dünən tikdiyimizi bu gün sökürük. Həm də sökülmə ilə bağlı ortaya elə arqumentlər qoyuruq ki, bişmiş toyuq bizə gülüb lağ edir. Məsələn, şəhərimizin Nərimanov rayonu Koroğlu Rəhimov küçəsində tikilən keçidin sökülməsi və sökülmə səbəbləri kimi.**

Dünəndən sosial şəbəkələr dağılır ki, bəs həmin keçid sökülür. Sosial şəbəkələrdə hara üz tutursansa, adıgedən keçidin fotoları, videoları ilə qarşılaşırsan. Həmin fotolara və videolara əsasən, artıq tikilinin bir hissəsi dağıdılıb.

Bu keçidin sökülməsi şəhər sakinlərinin ürəyincə oldu. O mənada ki, keçidin fəaliyyəti şəhər sakinlərin narazılığına səbəb olmuşdu. Sakinlər keçidin həm lazımsız yerdə inşa edildiyini, həm də üçmərtəbəli olduğu üçün çıxıb-düşməyin çətinliyini bildirirdilər. Buna görə də sakinlər sevinirlər. Bu məsələnin bir tərəfi...

Keçək məsələnin digər tərəfinə ki, xəbər agentliklərimizin yaydığı məlumatlarda qeyd olunur ki, keçidin tikilməsi üçün Şəhərsalma və Arxitektura Komitəsindən rəsmi icazə, eləcə də Bakı Nəqliyyat Agentliyindən razılıq verilməyib. Maraqlıdır, həm də xeyli gülməlidir, ona görə ki, bəs görəsən bu keçidin tikilməsinə kim icazə veribmiş. Belə çıxır ki, gəlib icazəni sakinlərdən alıblar? Sakinlər də razılıq veriblər? Tikiləndən sonra görəndə ki, keçid ərazidəki səkiləri xeyli daraldır və şəhərdə hərəkət üçün narahatlıq yaradır, deyiblər ki, bu nə iş idi başımıza gətirdik?

Həqiqətən gülməlidir, nə üçün? Bir qədər də bu barədə. Bildiyimizə görə, şəhərdə hər hansı bir tikilinin rəsmiləşdirilməsi üçün Şəhərsalma və Arxitektura Komitəsindən nümayəndələr ayrılır. Onlar gəlib ilkin olaraq əraziyə baxırlar. Qurumun adından da göründüyü kimi, ölçürlər-biçirlər, əgər müvafiqdirsə, onun tikilməsi ilə əlaqədar gələcəkdə heç bir problem ortaya çıxmayacaqsa və yaxud da ərazidə həmin tikiliyə həqiqətən ehtiyac olduğu təsdiq edilərsə, daha yuxarı qurumlar həmin tikilinin reallaşmasına razılıq verir. Beləliklə də işlər başlanır.

Ta bu keçidin məsələsi kimi yox. Elə bu səbəbdən də keçid dünəndən bəri gülməli bir lətifəyə çevrilib. Şəhərin mərkəzindəki üçmərtəbəli bu keçid tikilərkən görəsən hansı qurum Şəhərsalma və Arxitektura Komitəsindən icazə alıb, o da verməyib? Bəlkə sakinlər yığışıb gedibmişlər komitəyə? Yaxşı, sakinlər deyilmiş, bəs görəsən kim imiş gedib icazə alan və icazəsi qəbul edilməyən? Bəs Şəhərsalma və Arxitektura Komitəsi necə, yəni heç bu tikilini görmədi, heç demədi ki, axı bunun icazəsini biz verməmişik. Eləcə də Bakı Nəqliyyat Agentliyi. Agentlik heçmi bu keçidin tikintisini görmədi? Xatırlamadı ki, axı bu keçidin tikilməsinə razılıq verməmişik. Həqiqətən, gərək danışanda da elə söz danışasan ki, gülməli alınmaya.

Hə, elə bu yerdə böyük şairimizin gözəl misralarını xatırlamamaq mümkün deyil: Səndən ötən mənə dəydi, məndən ötən sənə dəydi, səndən, məndən ötən zərbə Vətən, Vətən, sənə dəydi. Keçidin tikilməsindən Şəhərsalma və Arxitektura Komitəsinin, daha sonra Bakı Nəqliyyat Agentliyinin, yəqin ki, aid icra hakimiyyətinin də xəbəri olmayıb. Sakinlərin tikmədiyinə əmin olduğumuz üçün soruşuruq, bəs kim tikib? Şəxsi tikili olmadığı üçün bəs keçidin tikilməsinə kim razılıq verib, həmçinin də vəsait. Deməli, öz-özünə tikilib. Öz-özünə tikilən bu keçid hazırda sökülməkdədir. Bəs görəsən keçidin tikilməsinə vəsait hansı təşkilat tərəfindən ayrılıbmış?

Vallah, vəsaitdən söhbət düşəndə adam lap qəhqəhə çəkmək istəyir. Çünki heç olmasa anlayırıq ki, icazəsiz, vəsaitsiz hər hansı bir tikili reallaşa bilməz. Belə olan yerdə adam bir qədər də ürpənir. Deyirsən bəlkə bu keçidi cinlər, şeytanlar gecə ilə inşa ediblər. Yəni cin, şeytan dövrünə qayıdırıq?

Bismillahir-rəhmanir-rəhim deyib, o fikirlərdən uzaqlaşanda isə düşünülən sadəcə bunlar olur: Bəs yaxşı, bu qədər vəsait hara getdi? Hara gedəcək ki, havaya uçdu. Hara getdi, bilmirik, bildiyimiz odur ki, şairin misralarındakı kimi, səndən ötən, məndən ötən o vəsait dövlətin büdcəsindən çıxıb və geri qayıtmayacaq. İsraf olub getdi. Aid qurumlar isə bax bunun cavabını verməlidirlər ki, bu vəsait hara getdi?

# Hanı bu şəhərin baharı?..

## *PUBLİSİSTİK DÜŞÜNCƏLƏR*

***Qış qarı ilə gözəl olduğu kimi, yaz da çiçəyi, gülü ilə füsunkardır. Ancaq təəssüf ki, bu şəhərdə nə qışda qar var, nə də baharda çiçək... Hanı bu şəhərin baharı?.. Onu bizmi yola salıb uzaqlara yolçu etdik? Öz silahlı, qılınclı əllərimizlə bu şəhərin baharını məhv etdikmi? Nəfsimizə, arzumuza qurban verdikmi baharı? Yoxsa, küsdürüb yola saldıq? Nə etdiksə, bilmirəm, bahar getdi, bu şəhərə ta gəlmir ki, gəlmir. Ya küsüb bu şəhərdən, gəlmir. Ya yolunu, cığırını itirib, gəlmir. Ya da ta bu şəhəri tanımır. Yazı, yayı, payızı, qışı bilinməyən bu şəhəri...***





### Gözlər çiçək axtarır

Bahar bu şəhərə gəlməsə də, bu şəhərin sakinləri yazın bu gözəl günlərində çiçək axtarır. Başına ağ, çəhrayı şal salmış ağac axtarır. Onların rayihəsini ciyərlərinə çəkmək istəyir. Arıların bu ağaclardakı balladasını dinləmək istəyir. Çiçəklərdən zövq alıb baharı bahar kimi yaşamaq istəyir...

Hanı bu şəhərin baharı?.. Axı bu şəhərin sakinlərinin hər biri baharı bütün varlığı ilə yaşayan rayonlarımızdan gələnlərdir. Onlar o baharı arzulayır, o baharı görmək istəyirlər bu şəhərdə. Onlarla gül-çiçəyin bir-birinə qarışan rayihəsini duymaq istəyirlər. Pəncərəni açıb qarşısındakı çiçəkli ağacların ətrini otaqlarına doldurmaq istəyirlər.

Hanı bu şəhərin baharı?.. Yollarboyu bir çiçəkli ağac varmı? Könülləri oxşayan, bahar donlu, yaz ətirli bir ağac varmı? Sənə baharı andıran bahar varmı?

Bu şəhərdən baharları biz qovmuşuq. Yaşıl rəngi bomboz rəngə biz vermişik. Qurban olub yaşıllıqlar betonlara. Ucaltmışıq çoxmərtəbəli binaları baharın məskənində. Ağacları kəsib, yaşıllıqları məhv edib istəmişik bina tikək, sərvət sahibinə çevrilək.







Beləliklə betonlaşıb şəhərimiz... Hara baxsan bu şəhərdə bomboz beton, günəşin qarşısını kəsən hündürmərtəbəli binalardır.

Əlimizdən alıb bu betonlar neçə-neçə baharı... Bizlər rayonda, kənddəki bir mərtəbəli evimizin qapısının bahara açılan mənzərəsini orada qoyub gəlmişik. O qapıları hündürmərtəbəli binaları seçməklə biz bağlamışıq. İndi qapılarımız betona açılır, bahara deyil. Elə bu səbəbdən də hər bahar gələndə yadımıza yurdumuz düşür. O yurdların əsla bu şəhərlə müqayisə edilməyəcək baharları düşür. O baharların rayihəsi burnumuzun önünə gəldikcə, "kaş ki, kəndimizdə olardım bu bahar",- deyirik...

### Xatirələrin baharı

Rayonlarda bahar bir başqadır axı. Kaş ki, dağlardan əsib gələn bahar ətrini duya bilərdik. Kaş ki, bütün bunlara baxdıqca hər biri ölkəmizin müxtəlif rayonlarından olan şəhər sakinlərinin məxsus olduğu bölgələrə gedib çıxa bilərdik. Axı onların hər biri öz baharlarını arzulayırlar. Uşaqlıqlarının, bəlkə də gəncliklərinin yaddaşına yazılan o baharları... Bu şəhərdə çox az gördüyümüz yaşıl rəng rayonlarda göz baxdıqca uzanandır. Torpağın bağrını yarıb yaşılını ellərə, çöllərə, düzlərə sərən çəmən necə də füsunkardır. Lap yaxında çəmənin yaşılı çox açıqdır, göz uzandıqca tündləşir, Günəşin zərrin şüaları altında parıldayır, dağların sinəsinə çatanda isə sanki buludlardan kölgə alıb qaraya çalır rəngi. Bu yaşıl çəməndə Günəşin hərarətini hiss edər-etməz boy verən, azacıq yaz küləklərinə tab gətirə bilməyib yerindəcə bahar nəğməsi ilə rəqs edən incə ağ, sarı, qırmızı, mavi çiçəklər canlanır xəyalımda. Artıq bu yaşılın üzərinə qıpqırmızı lalə örpəyini də sərib, nərgizlər buradan Günəşə boylanıb. Yolçunu yoldan edən, tamaşasına elləri çağıran çiçəklər   Ah, nə gözəl yurdumuz var.

### Nanə, yarpız, quzuqulağı vaxtıdır

Bu dağlara, dərələrə, düzlərə örtük olan çəmənlər tək güllərin-çiçəklərin məskəni deyil, həm də bol-bol nemətlərimizin məskənidir. O nemətlər ki, yazın əvvəllərindən göyün gurlamasını, şimşəyin çaxmasını gözləyir. Bu anda babalarımızın da dediyi kimi, artıq yeməli olan onlarla bitkinin yığım mövsümü başlayır. Ta payızın sonlarında qar yerə düşənədək bir-birinin ardınca insanların ruzisinə çevrilirlər.

Saymaqla bitərmi onların adı? Hansını deyim, arxların, kanalların kənarında erkən yazda torpağı çırtıb ətrini ətrafa yayan yarpızımı, bulaqların gözündən axan suyun Günəşin hərarətindən azacıq isinməklə ətraflarda gizlənən bulaqotuna yeni həyat verməsinimi? Toxumunu sanki Tanrının yurdumuza səpdiyi, yığmaqla bitməyən qazayağı, mərövcə, cıbırıq, yemliyimi? Yoxsa yurdumuza baharın gəlişinə baxmayaraq, dağların kölgəliklərində hələ də əriyib, istiyə təslim olmayan qarın altında bahar ömrünü yaşayan cacığı, çirişimi? Hansından danışım?

Çobanyastığının çəmənlərin içərisində nazındanmı, dağ nanəsinin, kəklikotunun tək bir yarpağını dərməklə ətrafa yayılan doyumsuz ətrindənmi? İnsan bilmir bu gözəlliklərin hansından danışsın. Bahar bitmir ki... O sanki özündən əvvəl qışdan, özündən sonra isə payızdan bir ay da alıb "Tamaşama gəlin, gözəlliyimə, ruzimə-bərəkətimə baxın", - deyir.

O nemətlər, o ruzilər rayonlarımızdan Bakıya- bazarlara gətirilir. Onları artıq sadəcə burada görən bizlər elə görən kimi də xəyalən rayon, kəndlərimizə gedir, baharın bir gününü orada yaşayır, ətrini ciyərlərimizə çəkir və yenidən bu şəhərə qayıdırıq. Və yaxud da bir andaca həmin ətir ta rayon, kəndlərimizdən burnumuzun önünə qədər gəlir: torpaq ətri, çiçək ətri, əllərimizlə dərdiyimiz, əlimizə ətri hopan min bir adda ruzi payının ətri...

Bütün bunların fonunda yenidən deyirik: hanı bu şəhərin baharı? Görəsən haradadır, niyə gəlmir bu şəhərin baharı? Bilirik ki, rayonlarımızdakıtək bəzəklə-düzəklə gələ bilməz. Çünki yollarını bağlamışlar, onu bu şəhərdən didərgin salmışlar. Bəlkə də gəlib. Hansısa hündürmərtəbəli binanın arxasındadır, görə bilmirik. Hansısa bir betonin kölgəsindədir, görə bilmirik. Hansısa yerlə yeksan edilmiş təbiət məzarlığındadır, duya bilmirik. Çünki düydürmür özünü. Qəlbi sınıq, küskündür bizlərə. Onu bu şəhərdən biz qovmuşuq. İndi nə qədər böyük arzu ilə yolunu gözləyiriksə, bir o qədər böyük haqsızlıqla onu qovmuşuq. Belə isə, hələ neçə yazlar gələcək ömrümüzə, bizsə "hanı bu şəhərin baharı?",- deyib onu çox axtaracağıq...

***Mətanət Məmmədova***

# Homoseksuallığı hansı dərmanlar yaradır?

**Həddindən artıq ağrıkəsicilərdən istifadə həzm sisteminə və mədə də daxil olmaqla digər orqanlara zərər verə bilər. Mədəni müxtəlif xəstəliklərdən qoruyan selikli qişa ağrıkəsicilərin həddindən artıq istehlakı nəticəsində zədələnir və mədədə qanaxma, xora və şiddətli ağrılara səbəb olur. Ağrıkəsicilərin normadan çox istifadə edilməsi immunitet sistemini də məhv edir.**

Hədsiz ağrıkəsici istifadəsindən zərər görən digər orqan bağırsaqlardır. Lazım olan miqdardan artıq dərman qəbul etmək bağırsaq sisteminin fəaliyyətinə mənfi təsir edir və uzun müddət davam edən xroniki ishal probleminə səbəb olur. Ümumiyyətlə, kimyəvi tərkibli dərmanların çox istifadəsi zamanı toksik maddələrin bədəndən atılması çətinləşir və böyrək metabolizmasına pis təsirlər yaradır. Ağrıkəsicilər yalnız həkim təyinatı ilə və lazım olduqda istifadə edilməlidir.





## Ağrıkəsici onları "mavi" etdi

Dünya mətbuatında son illər bəzi dərmanların kişilik hormonlarını pozması, orqanizmdə hormon dəyişikliyinə səbəb olması barədə çox məlumat yayımlanır. Hollandiyada 22 yaşlı gənc bir il mütəmadi istifadə etdiyi ağrıkəsici dərmanın onda hormon dəyişikliyi yaratdığını iddia edirdi. Belə ki, güclü oynaq ağrılarından şikayətlənən gəncə həkimi ağrıkəsici dərman məsləhət görür. Hər gün dərmanı qəbul edən gənc bir müddət sonra özündə qəribə dəyişiklik hiss edir. O qadın kimi geyinmək, dırnaqlarını boyamaq, sinəsindəki artıq tüklərdən qurtulmaq kimi bir çox istəyinə qarşı çıxa bilmir və 1 ildən sonra Xorxe özünü tamamilə qadın kimi hiss edir. Qəribə dəyişiklikdən şoka düşən Xorxe Voorhoev məhkəməyə verdiyi dərman firmasından küllü miqdarda kompensasiya da almışdı, amma artıq həyatını "mavi" olaraq davam etdirmək məcburiyyətində idi.

Bir neçə il əvvəl isə Fransada 50 yaşlı bir kişi bir neçə həftə içdiyi ağrıkəsicilərin onu "mavi" etdiyini iddia etmişdi. Tibbi ekspertizadan keçirilən kişinin bədənində həqiqətən də hormon dəyişikliyi müşahidə edildi. Dərmanları laborator müayinəyə göndərən məhkəmə iddiaçının iddiasını təmin etdi və dərman şirkəti bağlanmaqla yanaşı, iddiaçıya külli miqdarda təzminat ödədi.

## Çörək kimi, su kimi...

Sirr deyil ki, hazırda bütün dünyada böyük tələbat olan ağrıkəsicilər insanlar üçün ağrıdan qurtulmağın ən rahat vasitəsidir. Ötən il Omicron virusunun tüğyan elədiyi bir dövrdə İngiltərə apteklərində ağrıkəsici ehtiyatının tamamilə bitdiyi barədə mətbuatda məlumatlar yayımlandı. Hökumət bundan narahatlığını dilə gətirdi, xüsusilə "parasetamol" tərkibli ağrıkəsicilərin ehtiyatının olmadığını açıqladı və insanların ağrıkəsiciləri çörək və su kimi qəbul etdiyini bildirdi.



Bir çox ölkə səhiyyəsi kimi, qonşu Türkiyədə də ağrıkəsici istifadəsi yüksək həddə çatdığından ölkənin səhiyyə qurumu narahatlığını mətbuat vasitəsi ilə dilə gətirib. Ağrıkəsici istehlakına görə dünyanın lider ölkələrindən biri olan Türkiyədə insanların ağrıkəsən dərmanlara ehtiyacını həkimlər yemək, su kimi xarakterizə edir. Bunun səbəbini stressli həyatla izah edən həkimlər yüksək dozalı ağrıkəsicilərin insanın tədricən intiharı kimi qiymətləndirirlər.

Yüksək dozalı ağrıkəsicilər uzun müddət istifadə edildikdə böyrək çatmazlığı yaradır. Bu qənaətə ən müxtəlif ölkələrdə fərqli həkim qrupları tərəfindən aparılan bir neçə araşdırmanın nəticələri nümayiş etdirildən sonra gəlinib. Təcrübələr zamanı könüllülərin illər ərzində nə qədər ağrıkəsici qəbul etdiyi hesablanıb. Təbii ki, qəbul edilən ağrıkəsicilərin dozası da nəzərə alınıb. Əldə edilən nəticəyə görə, 10 ildə 2 kiloqrama yaxın ağrıkəsici qəbul edən adamda böyrək çatmazlığı riski olduqca yüksəkdir.

## Ağrıkəsici çarə deyil, amma həm də çarədir

Həkim-terapevt Akif Nuriyev bildirir ki, insanlar ağrıkəsicilərlə problemini "ört-basdır" etməyə həvəslidir deyə dərman şirkətləri daha güclü təsirə malik dərmanlar istehsal edərək dərman bazarında hegemonluq edir: "Hamı rastlaşıb bu vəziyyətlə, bir dərmanı bir dəfə istifadə edən və məmnun qalan insanlar bütün yaxınlarına həmin ağrıkəsicini məsləhət görür, amma əksəriyyət bilmir ki, bu güclü ağrıkəsicilər böyrəyə gələn qan axınını azaldır, qan təzyiqini artırır və bədəndə su və duz yığılmasına səbəb olur, böyrək sistemi üzərində yandırıcı təsir yaradır".

Müsahibimiz hər ağrı zamanı ağrıkəsici istifadə etməməyi məsləhət görür. Əvəzində, ağrı zonasına soyuq buz tətbiq etmək lazımdır. Dəhşətli baş, beyin, göz ağrıları ilə müşahidə olunan miqren tutmaları zamanı isə ağrıkəsici yerinə ılıq duş qəbul etmək, səsdən və işıqdan uzaq olmaq ağrıkəsici effekti verir: "Amma bəzən dəhşətli ağrı zamanı ağrıkəsici yeganə çarə olur. Həkimə gedənədək, müalicə edilənədək ağrıkəsici qəbul etmək ən doğru variant kimi gəlir insana. Amma ağrıkəsicilər də asılılıq yarada bilir".

Oxucuların diqqətinə çatdırırıq ki, internetdə ölkəmizdə qadağan olunmuş dərmanların siyahısı ilə tanış ola bilərlər, bu siyahıda ağrıkəsicilər də az deyil. Həkim məsləhəti olmadan dərman içməyin, bu sizin sağlamlığınızı və gələcək həyatınızı ciddi şəkildə hədələyir. Dozası yüksək ağrıkəsicilər içməklə həm böyrəyinizə, həm də ürək, qan-damar sisteminizə neqativ təsir göstərə bilərsiniz.

*Lalə Mehralı*

ARAŞDIRMA



Elçin Bayramlı

# Gömrük biabırçılığı: Şəxsi mala görə niyə vergi tutulur?

Gömrüklə bağlı son dövrlərdə əhali arasında narazılığın artması vətəndaşların xaricdən qayıdarkən və ya internet vasitəsilə xarici mağazalardan sifariş verməklə öz şəxsi istifadələri üçün aldıqları məhsulların gömrükdə kommersiya məhsulu kimi vergiyə və rüsumlara cəlb edilməsi ilə bağlıdır. Belə ki, xaricdən qayıdan vətəndaşların gətirdikləri mallara 800 dollarlıq, ölkə daxilinə xaricdən internetlə sifariş edilmiş məhsullara isə ayda 300 dollarlıq limit tətbiq olunur. Əvvəllər bu rəqəmlər xeyli yüksək idi, sonra azaldıldı. Son illərdə bütün məhsullarda ciddi bahalaşmanın qeydə alınması şəraitində artıq bu məbləğə şəxsi istifadə üçün normal bir mal almaq mümkün deyil.

Misal üçün, Əhməd özünə şəxsi istifadə üçün bir kompüter almaq istəyir. Orta səviyyəli bir kompüter bizim texnika mağazalarında 1500 manat civarındadır. Lakin xaricdən bunu 500 dollara sifariş etmək olur. Əhməd sifariş verir, kompüter gələndə isə gömrük deyir ki, bu 300 dollarlıq limitdən yuxarıdır, biz bunu kommersiya məqsədli mal kimi qiymətləndirib, vergi və gömrük rüsumları tutacağıq. Bu isə nə az-nə çox, qiymətin 40 faizi qədər tutur. Beləliklə, anormal bir qərar nəticəsində Əhmədin hüquqları pozulur, o şəxsi istifadə üçün aldığı mala görə kommersiya məqsədli mal kimi vergi və gömrük rüsumları ödəməli olur.

Yaxud Kamran xaricdən ölkəyə qayıdarkən xarab olmuş telefonunun yerinə oradan özünə 1000 dollarlıq bir telefon alıb. Gömrükdə yenə eyni proses baş verir. Bu günlərdə mediada və sosial şəbəkədə yayılan bir xəbər vətəndaşlarda ciddi qınaq doğurdu. Belə ki, gömrükdə vətəndaşın ölkəyə qayıdarkən özünə aldığı bir neçə pal-paltarı və adi xırda şəxsi əşyanı stolun üstünə düzüb, şəklini çəkərək onu cinayətkar kimi qələmə vermişdilər ki, bəs limitdən yuxarı qiymətdə məhsullar gətirib və bunu bəyan etməyib. Halbuki, dünyanın bütün ölkələrində vətəndaş xaricdən qayıdarkən özü üçün bəzi məhsullar ala bilər və bunun üçün kommersiya məqsədli mal kimi rüsumlar ödəmir. Üstəlik, brend məhsulların qiyməti baha olur və 800 dollar normal bir kostyumun qiymətidir. Bu halda hansı məntiqlə, hansı əsasla 800 dollarlıq limit qoyulur?

Ölkədə əksər məhsulların qiyməti xarici ölkələrdən bahadır. Bu halda xaricə gedib gələn vətəndaşların oradan özləri üçün bəzi məhsullar alması normal və məntiqlidir. Bunun qarşısını almaq ədalətli deyil və belə təcrübə dünyada yoxdur.

Vergiyə cəlb etmə yalnız kommersiya fəaliyyəti ilə bağlı ola bilər. Yəni, gəlir əldə edən vətəndaş vergi ödəməlidir. Lakin özünə paltar alan insan hansı gəlir əldə edir ki, vergi ödəsin? Demək, bu, məntiqsizlikdir və aradan qaldırılmalıdır. Bu səbəbdən qoyulmuş 300 və 800 dollarlıq limitlər azı 3 dəfə artırılmalıdır.

Maraqlıdır ki, Azərbaycana istənilən ölkədən qayıdan vətəndaşlar mütləq o ölkədən məhsullar gətirməyə çalışır. Lakin ölkəmizdən qayıdan əcnəbilər, turistlər əliboş gedirlər. Çünki bizdə məhsullar bütün ölkələrdən bahadır.

Problem təkcə vətəndaşların şəxsi istehlak üçün gətirdiyi məhsullarla bağlı deyil, ümumiyyətlə gömrük rüsumları yüksəkdir. Hətta bəzən bir avtomobilin gömrük rüsumları onun qiymətindən 2 dəfə çox olur ki, belə hala da dünyanın heç yerində rast gəlinməyib.

Gömrükdə malın dəyərindən artıq rüsum tətbiq edərək istehsalçıdan daha çox qazanmağa cəhd etməkdənsə, o malı ölkədə istehsal etməyə çalışmaq lazımdır. Bu halda idxaldan asılılıq azalacaq, yerli istehsal artacaq, ixrac artacaq, dövlət büdcəsinin gəlirləri çoxalacaq, əhalinin sosial vəziyyəti yaxşılaşacaq, dövlətin sosial xərcləri azalacaq. Ölkədə bolluq və ucuzluq olacaq.

Bu səbəbdən də gömrük rüsumları azaldılmalıdır. Yalnız ölkədə istehsalı yerli tələbatı ödəyən məhsulların idxalına yüksək rüsum qoymaq olar. Protektionist siyasət yerli istehsalı qorumaq üçündür. Bizdə istehsalı olmayan məhsullara rüsum minimuma endirilməlidir.

# Qızım, səni ərə verim...

*...Vermə ata, qurban olum!*

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması" istiqaməti çərçivəsində hazırlanıb*

Əsasən, müsəlman ölkələrinin ciddi problemi olan erkən nikah problemi Azərbaycanda da çox müşahidə edilir. Bir zamanlar ölkəmizin ən çox cənub bölgəsinin və Bakıətrafı kəndlərin problemi olan erkən nikahlar bu gün bütün Azərbaycanı cənginə alıb. İndi Azərbaycanın bir çox bölgəsində 14-15 yaşda, hətta bəzən 13 yaşlı qızların ərə verilməsi adət halını alıb.

### Həbsdən cərimə ilə yaxa qurtaranlar

Erkən nikahlarla bağlı, şübhəsiz ki, hüquq-mühafizə orqanları daha dəqiq statistikaya malikdir. Problemi ciddiyə almaq gərəkdir, ictimaiyyət olaraq hamımız problemin nə dərəcədə ciddi olduğunun fərqinə varmalıyıq. Övladlarını erkən nikaha təhrik edən valideynlər bunun necə bir cinayət əməli olduğunu anlamır, bu əmələ görə hansı cinayət məsuliyyəti daşıyacaqları barədə məlumata sahib deyillər.













Azərbaycan qanunverciliyinə əsasən, nikah yaşına (18) çatmayan şəxsin evləndirilməsinə yol verilmir. Cinayət Məcəlləsinin 176-1.2-ci maddəsinə görə, nikah yaşına çatmayan şəxsi evlənməyə məcbur edən şəxslər üç min manatdan dörd min manatadək miqdarda cərimə və ya dörd ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır.

Amma bəzən valideynlər müxtəlif qanunsuz yollarla, vasitələrlə məsuliyyətdən yaxa qurtarır, azadlıqdan məhrumetmə cəzası da yüngülləşdirilir. Belə hallar digər valideynlərə çox pis nümunə olur. Valideynlər məsuliyyətdən kənarda qalacaqlarını zənn edərək övladlarını uşaq yaşda gəlin edərək bədbəxt edirlər. Ona görə bu cür neqativ hallara qarşı da mübarizə aparılmalıdır.

### Uşaq gəlinləri necə xilas etməli?

Qonşuda, qohumda, tanıdığımız ailələrdə erkən nikah ehtimalı varsa, buna hazırlıq aparılırsa, ictimaiyyət olaraq buna qarşı çıxmalı, əlaqədar qurumlar xəbərdar edilməlidir. Hər bir vəzifə sahibi, məmur, öhdəsinə düşən işi icra etməlidir. Məktəb də buna görə cavabdehdir, yerli icraedici orqanlar da. Erkən nikahlara görə təkcə qarşı tərəflər deyil, xəbəri bilib gizlədənlər, əlaqədar qurumları xəbərdar etməyənlər də cəzalanmalıdır.

Problemin qarşısının alınmasına məsul orqanlar maarifləndirici tədbirləri ev-ev, qapı-qapı gəzərək həyata keçirməlidir. İnsanları məlumatlandırmaq vacibdir ki, hansı məsuliyyəti daşıyacaqlarını bilsinlər.

Əgər statistika ilə danışsaq, 1960-cı illərdə 18 yaşa qədər qızlar arasında nikaha girənlərin sayı təxminən 2 minə çatırdısa, 2008-ci ildə bu rəqəm 5500 nəfəri keçdi, son illərdə isə bu göstərici 6-7 mindən aşağı deyil. Statistikaya düşməyənlərin sayının bu rəqəmdən 2-3 dəfə çox olduğu ehtimal edilir. Dövlət Statistika Komitəsinin məlumatına görə, ötən il Azərbaycanda nikaha daxil olan qızların 137-si 15-17 yaş arasında olub. Rəsmi statistikaya görə, ölkədə 18 yaşadək nikaha girən qızların sayının ən yüksək həddi 2011-ci ildə olub. Həmin il belə qızların sayı 5138 idi.

### Erkən yaşda uşaq doğanlar

Qeyd edək ki, uşaq yaşda evləndirmə uşaq hüquqlarının pozulması ilə bərabər, həm də cinsi istismar deməkdir. Bundan başqa, erkən yaşda evləndirilən uşaqların nəsilartırma və sağlamlığında böyük problemlər yaranır. Ümumdünya Səhiyyə Təşkilatı xəbərdarlıq edir ki, qızlar 18 yaşına qədər ana olmaq iqtidarında deyillər. Burada orqanizmin fiziki və psixoloji hazırlığı məsələsi nəzərə alınır, çünki 14-16 yaşlı qızların hamilə olması, dünyaya uşaq gətirməsi təhlükəlidir. Bu zaman ana və uşaq ölümü baş verir, ya da dünyaya gələn uşaqlarda müxtəlif psixi və fiziki problemlər olur. Çünki qızların fizioloji cəhətdən formalaşması 18 yaşdan sonra baş verir. Məlumat üçün bildirək ki, son bir neçə ildə 15-18 yaşlı qadınların dünyaya gətirdiyi uşaqlar arasında ölüm halları 50 faiz artıb.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi hesab edir ki, bu problemlə əhali özü də mübarizə aparmalıdır. Qadağalar problemi həll etmir, tətbiq edilən cəza üsulları da həmçinin. Övladlarını erkən nikah bağlamağa məcbur edən valideynlər həm inzibati, həm də cinayət məsuliyyəti daşıya biləcəyini bilməlidir. Ekspertlər hesab edir ki, Cinayət Məcəlləsində bu barədə dəyişiklik edərək valideynlərin məsuliyyətini artırmaq da bir çıxış yolu ola bilir. Çünki bu, əslində milli əhəmiyyətli strateji məsələdir, erkən evlilik son nəticədə milli genefondun zədələnməsinə səbəb olur.

### Oyun oynayacaq uşaqlar beşik yelləyir

Erkən evləndirilən gənclərin psixoloji durumu sonrakı həyatında problem yarada bilər. Bu problemlər müxtəlif formalarda təzahür edə bilir. Erkən evləndirilən gənclər gənclik çağını keçdikdən sonra bunun bir ötəri hiss olduğunu düşünə bilər, ailəsindən soyuya bilər, vaxtından əvvəl yaranmış ailə ağırlığından, məsuliyyətindən bezə bilər. O bu problemlərdən uzaqlaşmaq üçün öz subay həmyaşıdları kimi macəra axtarışı düşüncəsində ola bilər.

Evliliyə, ailə həyatına hazır olmayan 13-15 yaşlı qızlar bunu travma kimi qəbul edir.

Təbii ki, həm fizioloji, həm də psixoloji baxımdan tam formalaşmamış bir gəncin ailə qurması düzgün deyil. Erkən evlilik onun həyatından və psixologiyasında bərpası mümkün olmayan izlər buraxır. Bu heç vaxt unuda bilməyəcəyi və dilə gətirə bilmədiyi bir hiss olaraq qalır. 13-15 yaşlarında ailə quran qızların böyük əksəriyyəti bu evliliyi travma kimi qəbul edir. Onlarda stress depresiyya halları zaman - zaman müşaidə edilir. Vəziyyət uzun sürsə mütləq peşəkar köməyinə ehtiyac duyulur.

### Valideynlər erkən qocalır

Onların uşaq yaşda valideyn olması özlərinin və uşaqlarının psixologiyasına mənfi təsir edir. Valideynlərdə yaşından tez qocalmaya səbəb olur, psixiloqlar hesab edir ki, gənc yaşda ata-ana olan insanların güzəşt etmə, bağışlamaq kimi hissləri zəif olur, eyni zamanda onlarda səbrsizlik də müşahidə edilir. Bu kimi hallar da valideynlərdə problemlərə, uşaqların psixi inkişafında ləngimələrə gətirib çıxara bilir. Belə uşaqların cəmiyyətə adaptasiyası ya gec olur, ya da ümumiyyətlə, olmur.

Bu cür problemi olan və psixologiyası erkən evliliyə görə pozulan, özünü ətraf aləmdən təcrid edən gəncləri cəmiyyətə qazandırmaq üçün xüsusi dövlət proqramı olmalı və bu proqram çərçivəsində psixoloqlar, sosioloqlar birlikdə işlər aparmalıdır. Yalnız bu halda biz onları cəmiyyətə qaytara bilərik.

### Xilas yolu 5 şərtdən ibarətdir

Psixoloqlar hesab edir ki, onların cəmiyyətə qaytarılması və erkən evlilik hallarının azaldılması üçün 5 əsas şərt yerinə yetirilməlidir. Maarifləndirməni gücləndirməli, erkən evliliyin zərərləri barədə sosial reklamlar hazırlamalı, mütəxəssislərin valideynlər və uşaqlarla ayrı-ayrılıqda və birlikdə görüşlərini təşkil etməli, Təhsil və Səhiyyə nazirlikləri birlikdə layihələr reallaşdırmalı, ərazi içra nümayəndələri erkən evləndirmə hallarına maksimum nəzarət etməli və erkən evlilik halı aşkarlanarsa gəlinin kimliyi mediaya çıxarılmamalıdır.

Məlumat üçün qeyd edək ki, hazırda dünyada hər il 10-12 milyon qız uşağı erkən evliliyə məcbur edilir. Beynəlxalq Qadın Araşdırma Mərkəzi (ICRW) açıqlayır ki, erkən nikahlar daha çox Afrika və Cənubi Asiyada rastlanır. Avropada evliliklərin 10 faizi erkən nikahdırsa Afrika və Cənubi Asiyada bu rəqəm 70 faizi keçib. Nigeriyada 75, Çadda 72, Banqladeşdə 66 faizlik statistikaya malik erkən nikah dünyanın ən vacib problemi olaraq qalır.

***Lalə Mehralı***

# Şakira Pikenin anası ilə əlbəyaxa dava edib



Kolumbiyalı pop ulduzu Şakiranın keçmiş sevgilisi Jerar Pikenin anası ilə əlbəyaxa dava etdiyi məlum olub. SİA xarici mətbuata istinadən xəbər verir ki, İspaniya mətbuatında yer alan xəbərə görə, Şakiraya xəyanət edən Pike vəziyyəti anası Montserrat Bernabeuya danışıb. Bernabeu da oğluna xəyanətini gizlətməyə kömək edib. Övladlarını qayınanasına əmanət edən Şakira bundan xəbər tutanda bu vəziyyətlə üzləşmək istəyib. Bu görüş mübahisəyə çevrilib və Bernabeu Pike və uşaqlarının gözü qarşısında Şakiraya hücum edib. Şakira isə artıq uşaqlarının nənələrini görməyə icazə vermir.

# Gənclərin bayağı musiqiyə meyili artır: günahkar kimdir?



"Son illər ölkəmizdə gənclərin bayağı musiqilərə meyilinin artdığı açıq hiss olunur. Muğama, saz havalarına, xalq musiqisinə qulaq asmayan gənclərin sayı günü-gündən artır. Gənclərin bir qismi bayağı musiqilərə, bir qismi xarici musiqilərə, çox az qismi də xalq musiqilərinə qulaq asırlar. Əslində bu çox ciddi tendensiyadır. Haqqında zamanla tez-tez danışdığımız qloballaşmanın, milli kimlikdən uzaqlaşmanın, bayağılaşmanın başqa bir təzahür formasıdır". Bu sözləri SİA-ya açıqlamasında millət vəkili Ceyhun Məmmədov deyib.

O bildirib ki, avtomobildə gedərkən bayağı musiqinin sədaları altında hərəkət edən, sosial şəbəkələrdə, xüsusilə TikTokda bayağı musiqinin sədaları altında atılıb-düşən gəncləri yəqin ki, çoxlarımız müşahidə etmişik: "Təəssüf ki, bir sıra hallarda televiziya və radiolarımız da bayağı musiqilərə geniş yer verirlər.

Bəs gənclərin bayağı musiqilərə bu qədər meyil göstərməsinin günahkarı kimdir? Hesab edirəm ki, bu məsələdə ailələrimizin, məktəblərimizin, ali təhsil müəssisələrimizin, televiziya və radiolarımızın üzərinə çox böyük məsuliyyət düşür. Çünki bu həm də milli məsələdir. Ailələrimiz övladlarının milli ruhda tərbiyəsi üçün ciddi cəhdlə çalışmalıdırlar. Onlara ilk yaşlarından xalq musiqilərini, saz havalarını, muğamımızı dinlətdirməli, zövqlərinin korlanmasına imkan verməməlidirlər.

Məktəb və ali təhsil müəssisələrimiz nə üçün məsuliyyət daşıyırlar? Ona görə ki, bu gün müxtəlif səbəblərdən bəzi ailələr öz övladlarına düzgün tərbiyə verə bilmirlər. Çünki bır sıra hallarda valideynlərin özlərinin tərbiyəsi, dünyagörüşü, intellektual səviyyəsi nəyin səhv və ya düz olduğunu onlara tam dərk eləməyə imkan vermir".

Deputat sözlərinə davam edərək qeyd edib ki, belə olduğu halda isə əsas güc və yük məktəb və ali təhsil müəssisələrinin üzərinə düşür: "Onlar işlərini yalnız təhsil verməklə bitmiş hesab etməli deyillər. Hərçənd ki, onların bir qismi əslində də heç normal təhsil də vermirlər.

Ona görə məktəb direktorlarının və ali təhsil müəssisələrinə rektor təyinatlarının ciddi həssaslıqla həyata keçirilməsi xüsusi əhəmiyyət daşıyır. Belə müəssisələrə mütləq savadlı, intellektual səviyyəsi yüksək, milli, milli-mənəvi dəyərlərə bağlı, zəngin dünyagörüşünə malik şəxslər rəhbər təyin edilməlidir. Təəssüf ki, bunu bu gün biz bütün məktəb və ali təhsil müəssisələrimiz haqqında söyləyə bilmirik. Əslində, bu, çox ciddi məsələdir.

Gənclərin belə bayağı musiqilərə meyil göstərməsində yuxarıda qeyd etdiyim kimi, bəzi televiziya və radiolarımız da ciddi məsuliyyət daşıyırlar. Onlar öz efirlərinə belə bayağı musiqiləri söyləyən müğənniləri dəvət etməməli, belə musiqilərə yer verməməlidirlər.

Heç şübhəsiz ki, dövlətləri, xalqları güclü edən onun dəyərləridir. Bu həm də milli təhlükəsizlik məsələsidir. Gələcək dəyərlərinə sahib çıxan, onu qoruyan, sıradan çıxarılmasına imkan verilməyən dövlətlərindir. Gəlin dəyərlərimizə sahib çıxaq, onları göz-bəbəyimiz kimi qoruyaq".

***Ləman Əlizadə***

## Bu gün 23 dərəcə isti olacaq



**Bakıda və Abşeron yarımadasında martın 29-da havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Milli Hidrometeorologiya Xidmətindən SİA-ya verilən məlumata görə, axşam yarımadanın bəzi yerlərində arabir duman olacaq. Mülayim cənub küləyi arabir güclənəcək. Havanın temperaturu gecə 7-12° isti, gündüz 18-23° isti olacaq. Atmosfer təzyiqi 757 mm civə sütunundan 757 mm civə sütununa enəcək. Nisbi rütubət 60-70 % olacaq. Azərbaycanın rayonlarında sabah hava əsasən yağmursuz keçəcək. Lakin gecəyə doğru bəzi dağlıq ərazilərdə arabir yağıntılı olacağı gözlənilir. Bəzi yerlərdə arabir duman olacaq. Qərb küləyi arabir güclənəcək. Havanın temperaturu gecə 6-11° isti, gündüz 23-28° isti, dağlarda gecə 1-6° isti, gündüz 12-17° isti olacaq.**

## Ölkəmizdə bloggerlərə nə dərəcədə hörmət var?

"Azərbaycanda bloggerlik fəaliyyəti son illər inkişaf edib. Burada çox faydalı və dəyərli imzalar görünür. Onlar insanlar üçün müxtəlif mövzu və situasiyalarda faydalı mövqelər sərgiləyirlər". Bu sözləri SİA-ya açıqlamasında fəlsəfə üzrə fəlsəfə doktoru Mail Yaqub deyib.

Onun sözlərinə görə, təbii ki, hər sahədə olduğu kimi, bloggerlik fəaliyyətində də problemlər ola bilər: "Məsələn, bir adam məzmunsuz yazılar yazır və yaxud aşağı səviyyəli paylaşımlar edir. Bəli, həmin adamın sosial şəbəkədə çoxsaylı izləyiciləri var, amma ortada ciddi məzmun yoxdur. Amma bunun yanında paylaşımlarında ciddi məzmun olan və xeyli sayda izləyici diqqətini özünə cəlb edən bloggerlər də var. Şəxsən mən onların fəaliyyətini yaxşı qiymətləndirirəm".

Mail Yaqub sözlərinə belə davam edib: "Ümumiyyətlə, bu gün sosial şəbəkələr çox ciddi fikir müzakirəsi məkanına çevrilib. Bu əslində çox gözəldir. Çünki insanların bir-biri ilə müzakirəsi, fikir bölüşməsi əvvəlki illərə nisbətən daha asanlaşıb, daha rahatdır. Bir adam indi həmin bu sosial şəbəkələr vasitəsində bloggerlik fəaliyyətilə nisbətən daha asan yolla insanlar arasında müsbət mənada nüfuz qazana bilər. Hətta bir çox hallarda bloggerlərin jurnalist fəaliyyəti daha keyfiyyətli, əlçatan, effektiv və operativ olur. Ona görə mən bu sahəni bloggerlik fəaliyyətini yüksək qiymətləndirirəm. Azərbaycanda da dediyim kimi bu sahədə çox müsbət tendensiyaların şahidi oluruq. Yenə də təkrar edirəm, mənfi hallar da ola bilər, amma heç kim bu mənfi hallardan sığortalanmayıb. Burada fikir bölüşmək, tez nüfuz qazanmaq şansı olduğu üçün bu şansdan, bu imkandan sui-istifadə edən şəxslər də var. Məsələn, yüngül paylaşımlarla, əxlaqdan, etikadan kənar paylaşımlarla milyonlarla, yüz minlərlə insanın diqqətini çəkən insanlar da ola bilər. Bu bütün dünyada və Azərbaycanda da var. Amma bu o demək deyil ki, ümumiyyətlə bloggerlik fəaliyyəti səhv, yaxud yanlışdır.

Bəs bu, blogerlik fəaliyyəti nədir?

Sosial şəbəkələrin imkanlarından istifadə edib insanlar arasında nüfuz qazanmaq, onlara müxtəlif mövzularda fikir çatdırmaq - bunun adı bloggerlikdir. Məzmun nə qədər ciddi olsa, bloggerlik fəaliyyəti də bir o qədər ciddi olar".

***Ayşən Vəli***

# Arıqlamaq üçün Oruc tutmağa dində necə baxılır?




"Oruc Allahın əmridir. Hər bir insan orucluğu özünəxas şəkildə qəbul edə və həyata keçirə bilməz. Allah-təala oruc tutmağı və Ramazanın ehtiramını saxlamağı Peyğəmbərinə əmr edib. Bir ay sübh açılandan axşama qədər insan özünü yemək-içməkdən saxlamalıdır. Eyni zamanda, nəfsini və şəhvət hisslərini təxirə salmalıdır. Amma hava qaralandan sübhə qədər insan adi həyatında hansı işləri görürsə, onları həyata keçirə bilər. İslam dinimizdə təkid olunur ki, Ramazanda insan yalnız mədəsi ilə oruc tutmamalıdır". Bu sözləri SİA-ya açıqlamasında Qafqaz Müsəlmanlar İdarəsinin sədr müavini Hacı Fuad Nurullayev deyib.

Onun sözlərinə görə, insan gözü, qulağı, əli, ayağı, hətta qeybətdən uzaq duraraq dili ilə oruc tutmalıdır: "Ona görə də Ramazan orucu insanı tam şəkildə həm cismani, həm də ruhani islah edir. Amma kimsə düşünsə ki oruc pəhrizdir, Ramazan ayında oruc tutub arıqlayaram, həmin adam öz ibadətini dərəcədən salmış olur. Artıq həmin ibadətin savabı itir. Pəhriz etmək, bədəni arıqlatmaqla iş bitmir. Əgər bir insan arıqlamaq niyyəti ilə oruc tutursa, ondan savab qazanmaz. Cismi üçün sağlamlıq əldə edə bilər, amma dini baxımdan savab əldə etməz".

Qurum rəsmisi sözlərinə davam edərək bildirib ki, oruc bir ibadətdir: "Bu ibadət ilə biz həm sağlamlığımızı qoruyuruq, həm də mənəviyyatımızı qidalandırırıq. İnsan Allahın əmri olaraq orucu ibadət qəbul edir və şərtlərinə əməl etməlidir. İftar açdıqdan sonra səhərə qədər yemək də olmaz. Oruc tutduqda gün ərzində qida qəbul etmədiyimiz üçün mədə sıxılır və iftardan sonra biraz yemək yedikdə dərhal doyuruq. Bu da insana mənən başa salır ki, dünya malına aludə olmaq lazım deyil. Bilməliyik ki, Allahın bəxş etdikləri yalnız bizim deyil, paylaşmaq lazımdır. Hətta iftar süfrəsində özümüz üçün aldığımız ərzaqdan belə qonşulara, yoxsullara pay ayırmalı, xəstələrə baş çəkməliyik. Bu ayın özünəxas ibadət və duaları var ki, onlar icra olunmalıdır".

***Ləman Əlizadə***

## ELAN

**Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyası aşağıdakı kafedralarda vakant yerləri tutmaq üçün müsabiqə elan edir**

*Humanitar fənlər kafedrası - Baş müəllim*
*Musiqi nəzəriyyəsi kafedrası - Baş müəllim*
*Xor dirijorluğu kafedrası - Baş müəllim*
*Fortepiano, orqan, klavesin kafedrası - Baş müəllim*
*Kamera ansamblı kafedrası - Baş müəllim*

Müsabiqə müddəti elan qəzetdə dərc edildikdən sonra bir aydır.

Ərizə və sənədlər müsabiqə haqqında əsasnaməyə uyğun rektorun adına bu ünvana göndərilə bilər. Bakı şəhəri, Az-1014. Ş.Bədəlbəyli küçəsi 98.

***Baş redaktor:***
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyov
küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 4000**